# Sabiq rəis məhkəməyə gəlib, şok etiraflar etdi...


# Hürriyyət

SİZİN ÜÇÜN QƏZET

№37 (3328) 1 Oktyabr / 2024-cü il | Həftədə 1 dəfə çıxır | Qiymıəti: 60 qəpik


ANA XƏBƏR



## Təhsil işçiləri Naxçıvandakı "yeniliyə" etiraz edir

# Özəl reabilitasiya mərkəzlərinin bağlanılması təklif olunur

Dövlət qurumunun müəmmalı təklifinin arxasında hansı maraqlar dayanır?




GÜNÜN NƏBZİ

Layihə

## Ölkədə qiymətlər niyə sürətlə artır?



Sosioloq Elçin Bayramlı: "Bunun obyektiv və sübyektiv səbəbləri var..." 12

Xəbər

## ADP-dən vasitəçisiz sülh anlaşması təklifi

Partiya hakimiyyəti Ermənistanla, başqa ölkələrin müdaxiləsi olmadan, sülh sazişini reallaşdırmağa çağırıb 2

Şikayət

## Azərbaycanda şok olay

Pensiyasını kəsdilər, dedilər ki, sən 31 il əvvəl ölmüsən... 10

Baxış

## "Ölkənin bütün demokratları, birləşin!"

Necə birləşək, kimlə və niyə birləşək? - bax, budur sual! 5

Toplum

## YAP üzvünə "sən müxalifətçisən" deyib, tibbi xidmət göstərilmədi

Vüsal Hümbətzadə: "Xəstəxananın direktoru dedi ki, siz müxalifətsiniz, bura başqa şeyə görə gəlmisiniz" 7

Layihə

## Məktəbdə psixoloqlar niyə var?



Gülnar Orucova: "Məktəb psixoloqları işlərini düzgün qursa, uşaqlar arasında bu qədər mübahisə olmaz" 11

Xəbər

## Bayden Paşinyanla niyə görüşmədi?



Fərhad Məmmədov: "Erməni diasporu ona dəstəyin əleyhinədir..." 2

Sərbəst

## "Öncə sərhəddən başlamaq lazımdır..."

Zülfiyyə Bayramova: "Vəzifəsindən, mövqeyindən asılı olmayaraq, narkoticarəti himayə edən hər bir məmur cəzalandırılmalıdır"

"Bildiyiniz kimi, dövlətimiz, Prezidentimiz tərəfindən ölkəmizdə narkomaniyaya və narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizə başlanılıb. Əslində, bu mübarizə əvvəldən də var idi, sadəcə, indi daha da sərtləşdirilib. Mən belə düşünürəm ki, bu sərtləşdirilmə gənclərimizin xeyrinədir. Amma gəncləri narkomaniyadan uzaqlaşdırmaq üçün mütləq maarifləndirmə aprılmalı, sağlam həyatın təbliğatı olmalıdır". Bu haqda Stopnarkotik.az-a açıqlamasında tanınmış aparıcı, hüquqşünas Zülfiyyə Bayramova bildirib. 15

Ölkə

## Qubada böyük saxtakarlıq

Məhkəmələr qanunu deyil, qanunsuzluğu müdafiə edib

Quba rayonu, Vəlvələ kənd sakini Niyazova Rəhigül Fiyaz qızı "Hürriyyət"in redaksiyasına gələrək, qarşılaşdığı haqsızlıqları dilə gətirib. Qonşusu Balakişiyev Qərib Bayram oğlu ilə aralarında torpaq problemi olan şikayətçi deyir ki, məhkəmələr ədaləti bərpa etmək yerinə, qanunsuz qərar çıxarıblar. Rəhigül Niyazovanın sözlərinə görə, 2000-ci ildə qaynı Əliyev Eldar Aydın oğlu ailəsi ilə birlikdə Rusiyaya, oradan isə Qazaxıstana köçüb. Həmin tarixdən Vəlvələ kəndində qaynının və həyat yoldaşı Mahmudova İsminaz Əhməd qızının mülkiyyətində olan 1,24 ha torpaq sahəsi, özlərinin razılığı əsasında, onun tərəfindən istifadə olunub... 6

SİZİN ÜÇÜN QƏZET

# Hürriyyət

№37 (3328) 1 Oktyabr / 2024-cü il | Həftədə 1 dəfə çıxır | Qiymәti: 60 qәpik

# “Ölü qalxıb fəsəli, tort yeməyəcək ki...”

## Tural İrfan: “İslamda qəbir üstünə yemək, şirniyyat aparmaq kimi ənənə yoxdur”



**“Bəzi bölgələrdə və bəzi ölkələrdə qəbir üstünə yemək, şirniyyat, meyvə aparıb qoyurlar. Belə ənənə İslam dinində yoxdur”. Bu fikirləri Hurriyyet.az saytına açıqlamasında tanınmış ilahiyyatçı Tural İrfan söyləyib.**

“Bu, İslamdan əvvəlki dinlərdən, əsasən şamanizmdən qalma adətdir. Qəbristanlıqda yemək yemək, namaz qılmaq, oranı dünya işlərinə vasitə qərar vermək dinimizdə doğru sayılmır. Qəbristanlıq axirət aləminin bu dünyadakı ibrət yeridir. Adi, sadə və standart məzarlar olmalıdır, təmiz saxlanılmalıdır, vəssalam.

Qəbir daşı qoymaq, hasar çəkmək, təmtəraq yaratmaq hələ qəbir üstündə talvar, günbəz tikmək, qəbir üstünə yemək, meyvə, şirniyyat aparıb düzmək olmaz. Bu, böyük günah və küfrdür. Dini təhrif etmək dindən çıxmaq qədər təhlükəlidir”.

İlahiyyatçı qeyd edir ki, istisna hal kimi ucqar yerlərdə rəhmətə gedən yaxınlarını ziyarətə gedənlər məzar üstünə dən, buğda səpirlər ki, quşlar yesin, sanki alqış etsin, bu da ölünün ruhu üçün xoş olsun:

“Yaxud müəyyən meyvə, şirniyyat qoyurlar ki, yoldan keçən yolçular, miskin adamlar, çobanlar, dərvişlər ehtiyac olsa ondan qidalansınlar, dua etsinlər. Bunu ölü üçün ehsan qismində edirlər. Amma bu da başqa dinlərdən keçmədir. Həmçinin, indiki dövrdə buna ehtiyacı olan yoxdur. Və heç kəs də qəbristanlıqdan nəsə götürüb yeməz. Həmin şirniyyatları orada it-pişik, qurd-quş dağıdır, məzarlıq çirklənir. Bir sözlə, bu, doğru adət deyil. Bunu əsasən cahil və dindən uzaq, savadsız adamlar edir. Adicə Fatihə surəsini, kəlimeyi-şəhadəti, hətta ölünün üstündə dua etməyi belə bilmirlər, ancaq daşı dəsmalla silib, şəklin üzündən öpüb ağlamağa başlayırlar. Amma İslamda ölü ziyarəti belə olmur. Ən azı əlini qaldıraraq dua edib, rəhmət diləmək lazımdır. İmkan varsa, su çiləmək kifayət edir. Yoxsa hoqqa çıxarmaq, şirniyyat aparmaq, fəsəli bişirmək kimi xurafatlara lüzum yuxdur. Ölü qalxıb fəsəli, tort yeməyəcək ki... Elə bu dünyada əhlini qırıb məhv edən həmin şirniyyatlardakı saxta yağlar, kimyəvi maddələrdir. Biçarə ölülər bu yerin üstündəki əzabdan canını güclə qurtarır, yerin altında da onlardan əl çəkmirlər. Ümumiyyətlə, belə işlər görmək lazım deyil.

Cəmiyyətimiz vəhşi tipdə yaşayır. Qəbirləri hasara alırlar. Bu, daş dövrünün mağara təfəkküründən qalmadır. Hərə ölüsünə dağ boyda qara daş qoyur. Sonra da aparıb üstündə məqbərə tikir, yemək, şirniyyat qoyur. Bu böyük günahdır və qəbirdə ölüyə işgəncə verməkdir. Ölünün ruhu bu şeylərdən əzab çəkir. Çünki Peyğəmbərdən hədis var, buyurur ki, ölü ona ağlayanlar susana qədər əzab çəkir”.

T.İrfan vurğulayır ki, bu cür əməllər mövhumat, xurafat və cəhalətdir: “Dinimiz də düzgün təbliğ edilmir. İrançı mollalar məscidlərə dolub, yalnız siyasi İslamı mənimsəyiblər. Şübhəsiz ki, onlar heç bir dini, mənəvi dəyəri düzgün çatdıra bilməzlər. Dinimizi əhaliyə sağlam şəkildə çatdırmaq, xurafatlardan çəkindirmək üçün irançı olmadıqlarına görə Qafqaz Müsəlmanları İdarəsi tərəfindən təcrid edilmiş, boykot edilmiş sağlam, vətənpərvər ilahiyyatçıların təbliğatına, dini dəyərləri normal şəkildə maarifləndirməsinə şərait yaradılmalıdır”

**Aynurə İSMAYIL**

### Əyləncə səhifəsi

# Yaddaşı gücləndirən qidalar, bitkilər...



**Son vaxtlar yaddaşından gileyli olan çoxdur. Amma bunu bəzi qidaları qəbul etməklə aradan qaldırmaq olar. Yaddaşınızın möhkəmliyi sağlam beyindən aşlıdır. Məhz buna görə də hə dəfə süfrəyə oturanda mütləq gərək qəbul etdiyin qidaya fikir versin. Nəyin yeməyini bilməklə yaddaşımız bərpa olunar.**

Yeməyə başlayanda həmişə süfrəmizdə su olur. Bu, çox yaxşı əlamətdir. Bildiyimiz kimi, su qanda, sümükdə və beyində optimal nəm səviyyəsini saxlamağa ən dəyərli qida vasitəsidir. Odur ki, lazımi miqdarda su içmək beynin normal fəaliyyətinə yaxşı kömək edir.

Yeməyində balığa üstünlük verənlərin yaddaşı möhkəm olur. Əsasən də qızılbalıq, sardina, siyənək kimi balıqları. Çünki bu növ balıqlarda Omeqa-3 yağ turşuları və B6 vitamini ilə olduqca zəngindir, bunlarda zehni qabiliyyətin inkişafına müsbət təsir göstərir. Dediyim balıqları istehlak etməklə yaşla bağlı idrak geriliyinin qarşısını almaq mümkündür. Eləcə də yumurtanın tərkibi biokimyəvi maddələrlə, aminturşuları ilə zəngin olduğu üçün, həmçinin yüksək protein tərkibli olması səbəbindən beyin hüceyrələrinin inkişafına yaxşı təsir edir, nəticədə yaddaş güclənir. İnsan orqanizmin mineral maddələr və vitaminlərlə təminində meyvə-tərəvəzlər xüsusi əhəmiyyət daşıyır. Onların ilboyu gündəlik qidanın tərkibində olmağı yaddaşa faydası var. Qırmızı çuğundur, bənövşəyi rəngli badımcan, müxtəlif tərəvəzlər, alma yaddaş zəifliyinin qarşısını alır. Xüsusən almanın qabığı daha xeyirlidir. İspanağın tərkibindəki faydalı maddələr sayəsində sinir sistemi sakitləşir, qavrama, zehni qabiliyyət yaxşılaşır, bu da beyin hücrələrin aktivliyinə səbəb olur, eləcə də beyin damarlarını zədələməyə qoymur. Yer armudu da tərkibinin B6 vitamini, karbohidrat və digər maddələrlə zəngin olması baxımından beyinin funksiyasını yaxşılaşdırır, yaddaşın möhkəmliyini qoruyur. Zəngin tərkibi baxımından orqanizmin gündəlik vitamin və mineral maddələrə olan tələbatını ödəyən çərəzlər və toxumlar beyinin fəaliyyətini nizamlamaqla zehni qabiliyyətini artırır. Paxlalılar, taxıl kimilərdən olan paxla, soya, mərci, noxud, və digər bu tip qidaların müntəzəm istehlakı yaddaş zəifliyinin qarşısını almaq qabiliyyətinə malikdir. Bu da onların tərkibində müxtəlif qida maddələrlə bağlıdır. Bitkilərdən adaçayı və rozmarin beyinin fəaliyyətinə müsbət təsir, yorğunluğunu aradan qaldırır. Adaçayın beyin hüceyrələrinin bərpasında regenerativ rol oynadığını deyənlər çoxdur. Hətta sübut olunub ki, evdə olan rozmarinin qoxusu insanın əhvalını yüksəldir, yorğunluğu aradan qaldırır, nəticədə yaddaşı da güclənir.

**Zəfər ORUCOĞLU**

**Təsisçi:**
Sərdar Cəlaloğlu

**Baş redaktor:**
Vüqar Məmmədov
Tel: 070 333 22 85
012 496 98 93
E-mail: vuqar-mt@mail.ru

**Dizayner:**
Seymur Həsənov

“Hürriyyət” qəzetinin internet unvanı:
**Hurriyyet.az**
E-mail: hurriyyet@mail.ru
**Tiraj: 2500**

**Redaksiyanın ünvanı:**
AZ 1008, Bakı, akademik
Ələşrəf Əlizadə küçəsi, 31
Telefonlar: 496-10-72; 496-08-35

Lisenziyanın qeydiyyat nömrəsi: V 165
Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
Əlyazmalar geri qaytarılmır.
Redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnir və “Futbol+ servis” mətbəəsində çap edilib.

HR Bu işarə altında dərc olunan yazılar reklam xarakterlidir.

Qəzet 1991-ci ildən çıxır.



# Bayden Paşinyanla niyə görüşmədi?

## Fərhad Məmmədo: "Erməni diasporu ona dəstəyin əleyhinədir..."

**"Ermənistanın Baş naziri Nikol Paşinyan Nyu-Yorkda BMT Baş Assambleyası çərçivəsində çoxsaylı görüşlər keçirərək İrəvana qayıdıb. Paşinyan Baş Assambleyanın özündə, "Gələcəyə baxış" sammit-forumunda çıxış edib, hətta Ərdoğandan kitab alıb. Lakin mərkəzi hadisə baş vermədi - Paşinyan ABŞ Prezidenti Baydenlə görüşməyib. Vitse-prezident, Demokratlar Partiyasından ABŞ prezidentliyinə namizəd Harrislə də görüş olmayıb. İkincisi aydındır, dünyada hamı digər prezidentliyə namizədi qıcıqlandırmaq istəmir, çünki bəlkə Tramp yenə də qalib gələ bilər?! Paşinyan Zelenski deyil ki, hər iki namizədlə görüşsün".**

Bunu politoloq Fərhad Məmmədov N.Paşinyanın ABŞ səfərinin yekunlarını şərh edərkən bildirib.

Təhliçi hesab edir ki, Paşinyan Baydenlə görüşməyə məcbur idi, çünki bu yaxınlarda ABŞ ilə Ermənistan arasında münasibətlərin səviyyəsinin strateji tərəfdaşlıq səviyyəsinə yüksələcəyi açıqlanıb, İrəvana siyasi, maliyyə və hərbi yardım üçün "açıq çek" verilib.

Təhlilçi vurğulayır ki, Bayden gedərayaq prezidentdir, onun belə bir görüşdən itirəcəyi heç nə yoxdur, amma görüş baş tutmadı. Səbəblərə gəlincə, ekspert maraqlı nüanslara diqqət çəkib: "Söhbət seçkilərdən və ABŞ-dəki erməni diasporundan gedir. Artıq qeyd edildiyi kimi, ABŞ-də bu dövrdə hər şey, tamamilə hər şey seçki kampaniyasına tabedir. Dövlət maşınının bütün fəaliyyətinin əsas süzgəci bütün təbəqələrdən olan seçicilərin dəstəyini qazanmaq istəyinə tabedir. Əgər bu, rüşvətxor konqresmenlər və senatorlarla güclü lobbi qrupları olan bir etnik qrupdursa, bu etnik qrupun hər bir gözləntisi eksponent olaraq daha vacib olur. ABŞ-dəki erməni diasporu müxtəlifdir, geniş, onlar arasında fəal şəbəkəsi olan iki böyük təşkilat fərqlənir ki, bunlardan da ən güclüsü ANCA, yəni "məğlubedilməz" daşnaklardır. Bu radikallar Paşinyana nifrət edirlər, amma Ermənistanın müdafiəsinə qalxırlar. ANCA Ermənistanın ABŞ-dəki səfiri, Paşinyanın keçmiş ingilis dili müəllimi Lilith Makuntz ilə görüşmür. Məhz bu strukturlara Ermənistanın Müstəqillik Günü münasibətilə vitse-prezident və ABŞ prezidentliyinə namizəd Harrisdən məktub göndərilib və o, qeyd edib ki, "regionda sabitliyin əsas şərti ermənilərin Qarabağa ləyaqətlə qayıtmasıdır".

ANCA kimi radikallar üçün Paşinyana dəstək verməklə Ermənistan arasında fərq var. Onlar ABŞ-nin Ermənistana dəstəyinin tərəfdarıdırlar, amma Paşinyana dəstəyin əleyhinədirlər. Bayden administrasiyasının yanaşması isə fərqlidir, Paşinyana görə Ermənistana dəstək verilir...

Amerika tipli demokratiya Paşinyana qəddar zarafat etdi, çünki Baydenlə görüş, ən azı bir kənarda fotoşəkil, çiyninə dostcasına sığal çəkmək daxili siyasi kontekstdə, xüsusən də ayın sonunda Kazanda Putinlə görüş ərəfəsində çox faydalı olardı. Paşinyan ABŞ-yə səfərindən əvvəl də KTMT-ni Ermənistanın təhlükəsizliyinə təhdid adlandırmışdı. Lakin belə təxribatçı bəyanat belə ABŞ Prezidenti ilə bir auditoriyanı bölüşmək üçün kifayət etmədi". F.Məmmədov hesab edir ki, baş verənlər Paşinyana çağırışdır: "Ki, ABŞ-da daxili siyasi tendensiyalar xarici siyasətdən daha önəmlidir və lazım gələrsə, Paşinyana diqqət göstərməmək olar. Amma o bunu başa düşəcək?! Beləliklə, Paşinyan Samantha Poverin 20 milyon ələ yardımı və Ərdoğanın kitabı ilə kifayətlənməlidir".

**Rasim ƏLİYEV**

# ADP-dən vasitəçisiz sülh anlaşması təklifi...

## Partiya hakimiyyəti Ermənistanla, başqa ölkələrin müdaxiləsi olmadan, sülh sazişini reallaşdırmağa çağırıb

**Dünən ADP İdarə Heyətinin növbəti toplantısı keçirilib. Partiyanın mətbuat xidmətindən "Hürriyyət"ə verilən məlumata əsasən, toplantı iştirakçıları ilk növbədə ötən həftə baş tutan BMT Baş Assambleyasının 79-cu sessiyası ətrafında müzakirələr aparıb və sessiyanın gündəliyinə daxil olan, xüsusilə Yaxın Şərqdə, Cənubi Qafqazda sülhün və təhlükəsizliyin qorumasına həsr edilən bir sıra məsələlərə münasibət bldirib.**

Türkiyə prezidenti T. Ərdoğanın bu beynəlxalq tribunadan hazırkı İsrail hakimiyyətinin Fələstin və Qəzzadan sonra Livanda başlatdığı hərbi əməliyyatların bölgə və dünya üçün nə qədər təhlükəli olduğu, bu münaqişənin getdikcə daha böyük vüsət aldığı barədə çıxışı, İsrailin hərbi intervensiyasının qarşısının alınması üçün dünya dövlətlərinin səylərinin birləşdirilməsi barədə çağırışı yüksək dəyərləndirib. Fələstin məsələsinə diqqət çəkən partiya yetkililəri bu problemin İsrailin davam etdirdiyi indiki hərbi qaydada deyil, yalnız beynəlxalq hüququn ölkələrin dinc yanaşı yaşama, ərazi bütövlüyü və suveren hüquqlarına hörmət əsasında həll edilməsinin tərəfdarı olduğunu bildirib və dünya xalqlarını Yaxın Şərqdə qaynayan hərbi münaqişəyə son qoymaq üçün səylərini birləşdirməyə çağırıb.

İdarə Heyəti eyni zamanda sessiyanın gedişində Cənubi Qafqazda sülhün və təhlükəsizliyin təmin edilməsi naminə Almaniya və Türkiyə Xarici İşlər nazirlərinin, Türkiyə prezidenti ilə Ermənistan baş nazirinin, Azərbaycan və Ermənistan Xarici İşlər nazirlərinin keçirdiyi ikili görüşlərin bölgə üçün əhəmiyyətini, Almaniya kansleri O.Şoltsun Azərbaycan və Ermənistan arasında sülh sazişi bağlanması üçün Türkiyənin vasitəçiliyinin vacibliyini gündəmə gətirməsini müsbət dəyərləndirib və Azərbaycan hakimiyyətini hərbi müdaxilənin zərərli nəticələrini nəzərə alaraq Ermənistanla, başqa ölkələrin müdaxiləsi olmadan sülh sazişini reallaşdırmağa çağırıb.

## Demokratlar Rusiya-Ukrayna müharibəsinin həlli üçün 1994-cü il tarixli Budapeşt memorandumuna yenidən baxılmasını təklif edir...

İdarə Heyəti hakimiyyəti ölkəmizdə beynəlxalq əhəmiyyətli COP-29 tədbirinin keçirilməsi ərəfəsində bir sıra beynəlxalq hüquq müdafiəsi təşkilatlarının Azərbaycanda insan hüquq və azadlıqlarının pozulması ilə bağlı hesabatlarnı nəzərə almağa, ölkədə vətəndaş həmrəyliyinin, qorunması naminə söz, mətbuat, vicdan azadlığı, siyasi məhbusların azad edilməsi istiqamətində ciddi addımlar atmağa, bu sahələrdə konstitusiya və beynəlxalq razılaşmalarla üzərinə götürdüyü öhdəlikləri vicdanla yerinə yetirməyə səsləyib.

İdarə Heyəti bir neçə gün əvvəl Özbəkistanda rusdilli bir məktəbdə müəllimlə rus kökənli şagird arasında yaranan anlaşılmazlığa görə Rusiya Xarici İşlər Nazirliyinin sözçüsü M.Zaxarovanın bu ölkəyə qarşı təhdidli fikirlər səslədirməsini Özbəkistanın daxili işlərinə müdaxiləsi kimi dəyərləndirib və bu cür insidentlərin Azərbaycanda önlənməsi üçün rus dilinin əhatə dairəsinin məhdudlaşdırılması, digər xarici dillər kimi bu dilin də yalnız Azərbaycan Konstitusiyasına uyğun tədris edilməsi üçün müvafiq tədbirlər görməyin vacibliyini diqqətə çatdırıb.

İdarə Heyəti Rusiya prezidenti V.Putinin Təhlükəsizlik Şurasının son toplantısında Rusiya-Ukrayna müharibəsi konteksində məsələlərə münasibət bildirərkən ölkəsinin "nüvə doktirinasına" dəyişiklikləri elan etməsi və həmin dəyişikliklərə görə düşmənin hətta adi silahlardan istifadə edərək "ölkə suverenliyinə kritik təhlükə yaradacağı təqdirdə", eyni zamanda Belarusa hücum cəhdi ediləcəyi təqdirdə nüvə silahından istifadə edə biləcəklərini dilə gətirməsini dünya üçün təhlükə hesab edib. Partiya rəsmiləri Ukrayna, eləcə də dünya üçün bu təhdidləri nəzərə alaraq təhlükəsizlik zəmanəti kimi Ukraynada olan nüvə başlıqlarının ləğv edilməsi ilə bağlı Ukrayna, Rusiya, Böyük Britaniya və ABŞ arasında əldə edilən 1994-cü il tarixli Budapeşt memorandumuna yenidən baxılması, nüvə başlıqlarının yenidən bu ölkəyə qaytarılması üçün hərəkətə keçməyin vacibliyini bildirib.

**Hazırladı: KƏNAN**

# Özəl reabilitasiya mərkəzlərinin bağlanılması təklif olunur

## Dövlət qurumunun müəmmalı təklifinin arxasında hansı maraqlar dayanır?



**Azərbaycanda özəl reabilitasiya mərkəzlərinin bağlanılması təklif olunur. Stopnarkotik.az bu haqda etibarlı mənbələrə istinadən məlumat verir. Mənbə iddia edir ki, bununla bağlı bəzi dövlət qurumları tərəfindən narkomaniyaya və narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizə çərçivəsində təklif səsləndirilib. Buna səbəb kimi, reabilitasiya mərkəzlərinə nəzarət etməyin mümkünsüz olduğu əsas gətirilir.**

Doğrudur, müzakirələr zamanı digər dövlət qurumlarının nümayəndələri arasında qəti şəkildə bu təşəbbüsə qarşı çıxanlar da olub. Onlar bildiriblər ki, əgər özəl reabilitasiya mərkəzləri bağlanarsa, dövlət müəssisələri hesabına narkomanların müalicəsini həyata keçirmək mümkün olmayacaq.



Doğrudur, bu gün özəl reabilitasiya mərkəzlərində qiymətlər hər kəs üçün əlçatan deyil. Amma, ən azı, bu mərkəzlər övladı narkotik aludəçisi olan hər bir valideyn üçün ümid yeridir. Onlar övladını ölümdən xilas etmək üçün, borca düşmək yolu ilə də olsa, həmin vəsaiti ödəməyə məcburdur. Onsuz da son vaxtlaradək dövlət narkoloji dispanserlərində də valideyn 21 günlük müalicə üçün ən azı 500 manat ödəməyə məcbur edilirdi...

Xatırladaq ki, son illər narkomaniyaya və narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizənin effektiv olması üçün, aidiyyəti qurumların fəaliyyətini gücləndirməklə yanaşı, ölkəmizdə bu istiqamətdə müxtəlif layihələr, dövlət proqramları həyata keçirilməkdədir. Əslində, narkomanların müalicəsi məqsədilə özəl reabilitasiya mərkəzlərinin fəaliyyətinə, bir növ, sərbəstlik verilməsi də məhz bununla bağlıdır. Təsadüfi deyil ki, 2020-ci ilədək ölkəmizdə cəmi 2 reabilitasiya mərkəzi mövcud idisə, bu gün onların sayı 150-yə yaxındır. Əksər ekspertlər də bu fikirdədir ki, dövlət müəssisələrində 21 günlük müalicə prosesi müsbət nəticə vermədiyindən, hazırda özəl reabilitasiya mərkəzlərinə təlabat daha çoxdur.

Doğrudur, bu gün özəl reabilitasiya mərkəzlərində qiymətlər hər kəs üçün əlçatan deyil. Amma, ən azı, bu mərkəzlər övladı narkotik aludəçisi olan hər bir valideyn üçün ümid yeridir. Onlar övladını ölümdən xilas etmək üçün, borca düşmək yolu ilə də olsa, həmin vəsaiti ödəməyə məcburdur. Onsuz da son vaxtlaradək dövlət narkoloji dispanserlərində də valideyn 21 günlük müalicə üçün ən azı 500 manat ödəməyə məcbur edilirdi. Üstəlik, yuxarıda da qeyd etdiyimiz kimi, burada müalicə olunan narkomanlar çox nadir hallarda sağalıb, normal həyata qayıdırlar, əksinə onların bir çoxu qısa müddət sonra yenidən narkotik istifadə edirlər. Lakin hazırda fəaliyyət göstərən özəl reabilitasiya mərkəzləri arasında kifayət qədər müsbət göstərici ortaya qoyanlar var və belə mərkəzlərin sayı heç də az deyil.

Digər tərəfdən, onu da nəzərə almaq lazımdır ki, özəl reabilitasiya mərkəzləri tələb-təklif prinsipi çərçivəsində meydana gəlib. Yəni onların fəaliyyətinə təlabat olduğu üçün həmin mərkəzlərin sayı qısa müddətdə 150-yə çatıb. Deməli, 2020-ci ildən sonra Azərbaycanda narkomanların sayı sürətlə artdığından və narkoticarətin əhatə dairəsi genişləndiyindən, ölkəmizdə özəl reabilitasiya mərkəzlərinə ehtiyac yaranıb. Stopnarkotik.az saytının fəaliyyət göstərdiyi təxminən 1,6 il müddətində apardığı araşdırmalar da onu deməyə əsas verir ki, bu mərkəzlərin fəaliyyəti narkomaniyaya qarşı mübarizəyə çox böyük dəstəkdir.

Üstəlik, onu da nəzərə almaq lazımdır ki, özəl reabilitasiya mərkəzləri həm də keçmiş narkotik asılıları üçün iş yerləridir. Hansı ki, onların bir çoxu, hətta asılılıqdan xilas olduqdan sonra belə, özlərinə iş tapa bilmirlər. Heç bir sahibkar onlara narkoman keçmişləri ilə əlaqədar iş vermək istəmir. Belə bir vəziyyətdə yenə özəl reabilitasiya mərkəzləri onlara qucaq açır ki, həmin şəxslər cəmiyyətdən təcrid olunmasın, yenidən narkotikə meyl etməsin və s. O cümlədən, bu gün ölkəmizdə narkoloq, psixoterapevt, klinik psixoloq, eləcə də asılılığın digər növləri üzrə mütəxəssislərə çox ciddi tələbat olduğundan, keçmiş aludəçilərin təcrübəsindən faydalanmaq həm də məcburiyyətə çevrilib. Çünki özəl reabilitasiya mərkəzləri xaricdən mütəxəssis dəvət etmək üçün yetərli maddi imkana sahib deyillər.

Əlbəttə, bu mərkəzlər arasında da sui-istifadə hallarına yol verənlər, öz məram və məqsədini kənara qoyub, yalnız qazanc düşünənlər də az deyil. Hətta sosial şəbəkələrdə, mətbuatda zaman-zaman bu mərkəzlərdə baş verən qanunsuzluqların da şahidi olmuşuq. Amma bu o demək deyil ki, bütün mərkəzlərin fəaliyyətini qaralamaq lazımdır.

Yeri gəlmişkən, sual oluna bilər ki, Azərbaycanda narkomaniyanın və narkoticarətin əhatə dairəsi niyə məhz 2000-ci ildən sonra genişlənib? Yaxud 2020-ci ilədək ölkəmizdə bu sahədə mübarizə aparılmırdı?

Öncə ondan başlayaq ki, ölkəmizdə hər zaman narkomaniyaya və narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizə aparılıb. Sadəcə, 2020-ci ilədək bu mübarizə, belə desək, formal xarakter daşıyıb, hər şey sadəcə kağız üzərində mövcud olub. Lakin, dəfələrlə qeyd etdiyimiz kimi, 44 günlük Qarabağ müharibəsi zamanı savaş meydanında məğlub olan xarici güclər bu dəfə ölkəmizə qarşı "narkotik müharibəsi" elan etdilər. Şübhəsiz, bu qüvvələrin başında da İran gəlir. Hansı ki, 2020-ci ildən sonra molla rejimi ölkəmizin gələcəyi olan yeniyetmə və gənclərimizi məhv etmək üçün bütün yollarla Azərbaycana hamı üçün əlçatan olan ucuz sintetik narkotik soxmağa çalışır.

Təbii ki, bütün bunlar Azərbaycanın gələcəyi üçün çox böyük təhlükə vəd etdiyindən, Prezident İlham Əliyevin tapşırığı ilə narkomaniyaya və narkoticarətə qarşı mübarizə yeni müstəviyə keçirildi. Heç də səbəbsiz deyil ki, son illər, demək olar, hər gün ən azı 20-30 nəfər narkotik alverçisi saxlanılır, istər sərhəddə, istər də ölkə daxilində külli miqdarda narkotik vasitələr aşkar olunur. Doğrudur, bu mübarizə hələ arzuolunan səviyyəyə çatmayıb, amma ortada çox ciddi işlər də var. Məsələn, istər televiziyalarda və digər media subyektlərində, istər də küçə və meydanlardakı reklam lövhələrində narkomaniyanın zərəri haqda təbliğat aparılır, polis əməkdaşları, QHT nümayəndələri, ayrı-ayrı mütəxəssislər mütəmadi olaraq orta məktəblərdə maarifləndirici tədbirlər keçirir və s. Yəni mübarizə ən azı formallıqdan ciddi müstəviyə keçib. Bu səbəbdən, inanırıq ki, tezliklə cəmiyyət olaraq daha böyük nəticələr əldə edəcəyik.




Belə bir vəziyyətdə ölkədə narkomanların, eləcə də digər asılıların müalicəsini öz üzərinə götürən özəl reabilitasiya mərkəzlərinin fəaliyyətini qadağan etmək nə dərəcədə doğru qərar olar?! Əksinə, onların fəaliyyətini daha da inkişaf etdirmək, onlara dövlət səviyyəsində dəstək olmaq daha yaxşı olmazmı?! Bir anlıq düşünək ki, ölkədəki 150 özəl mərkəzin hər birinin ağzına qıfıl vurduq. Bundan toplum olaraq qazancımız nə olacaq? Həmin mərkəzlərin hər birində müalicə alan ən azı 30-40 nəfər (ümumilikdə 4 500-6 000 nəfər) asılını taleyin ümidinə buraxacağıq? Yaxud onları dövlət narkoloji dispanserlərində müalicə etmək üçün yetərli imkanlarımız var? Əlbəttə, yoxdur. Ötən il ölkəmizdə 350 və 150 yerlik iki yeni narkoloji mərkəzin açılacağı bildirilirdi ki, onlar hələ də fəaliyyətdə deyil. Belə olan halda ölkəmizdə sayları minlərlə, on minlərlə olan narkotik aludəçilərini necə müalicə etmək mümkün olacaq? Unutmayaq ki, "sındırmaq heç də tikmək deyil". Üstəlik, yenisini tikmədən var olanı uçurmaq heç də ağıllılıq əlaməti deyil.

O ki qaldı özəl reabilitasiya mərkəzlərinin konkret olaraq "nəzarət etmək mümkün olmadığı" səbəbindən bağlanılması təklifinə, doğrusu, burada da heç bir məntiq tapmaq mümkün deyil. Birincisi, axı, bunlara nəzarət etmək necə mümkünsüz ola bilər, həmin mərkəzlərin qapısı hansı dövlət qurumlarına bağlıdır ki? İkincisi, "nəzarət etmək mümkün olmadığı" üçün onların fəaliyyətini dayandırmaqdansa, yumşaq və qanuni nəzarət mexanizmi üzərində düşünmək daha yaxşı olmazmı?!

Yox, bu təklif müəlliflərinin ortada başqa maraqları varsa, o zaman əsassız bəhanələr irəli sürməkdənsə, "hər kəsi öz adı ilə çağırmaq" daha yaxşı olar.

**Hazırladı: İ.SABİRQIZI**

**P.S. Mövzunu davam etdirəcəyik.**



# Sabiq rəis məhkəməyə gəlib, şok etiraflar etdi...

## Rafael Xələfov: "Pulları bir yerdə mənimsəmişik... Bayram həmin gün 950 min manat verib "

**Müdafiə Nazirliyinin Maliyyə və Büdcə İdarəsinin sabiq rəisi general-mayor Nizami Məmmədov, Hərbi Hava Qüvvələrinin Maliyyə Xidmətinin sabiq rəisi polkovnik Cəlal Kazımov, Quru Qoşunların Maliyyə İdarəsinin sabiq rəisi Bayram Bayramov və Hərbi Dəniz Qüvvələrinin Maliyyə Xidmətinin sabiq rəisi Vüsal Əlizadənin cinayət işi üzrə növbəti məhkəmə prosesi keçirilib.**

Bakı Hərbi Məhkəməsində hakim Fikrət Əliyevin sədrliyi ilə keçirilən iclasda şahid qismində Müdafiə Nazirliyinin Maliyyə və Büdcə İdarəsinin Təftiş şöbəsinin sabiq rəisi, polkovnik Rafael Xələfov ifadə verib.

Hakim, Rafael Xələfovun əvvəllər məhkəmədə şahid qismində ifadə verdiyini, lakin Nizami Məmmədovun vəkili Rəşad Mirmehdizadənin vəsatəti ilə təkrar məhkəməyə çağırıldığını deyib.

Qeyd olunub ki, Rafael Xələfovun yenidən məhkəməyə çağırılması bəzi şahidlərin ifadələri ilə onun dediklərinin uyğun gəlməməsi ilə bağlıdır. Həmçinin Rafael Xələfov istintaq zamanı digər təqsirləndirilən şəxslərlə birgə məsuliyyətə cəlb edilsə də, istintaqın sonunda onun barəsində olan cinayət işi ayrıca icraata götürülüb.

Qeyd edək ki, Rafail Xələfov cinayət baş verən dövrdə Nizami Məmmədovun rəisi olduğu maliyyə və büdcə idarə-



sinin, Nəzarət-Təftiş şöbəsinin rəisi işləyib. Müxtəlif şahidlərin dediklərindən belə görünür ki, təftişdən toplanan pullar onun əlinin altından keçib. O, bu iş üzrə məhkəmənin ilk iclaslarında da ifadə vermişdi.

Rafael Xələfov Nizami Məmmədovun vəkillərinin suallarını cavablandırarkən bildirib ki, onun barəsində olan cinayət işi üzrə istintaq davam edir. Vəkilin sonuncu dəfə məhkəmədə şahid qismində dindirildikdən sonra nə qədər ziyanın dövlət büdcəsinə ödəməsi ilə bağlı sualına isə cavab olaraq polkovnik, məhkəmədə dindiriləndən sonra dövlət büdcəsinə ziyanla bağlı ödəniş etdiyini deyib, amma həmin məbləği açıqlamaq istəmədiyini bildirib.

Vəkili isə Rafael Xələfov tərəfindən 800 min manat ödəniş edildiyini bildirib.

Rəşad Mirmehdizadə R. Xələfova "Təftiş Şöbəsinin zabiti olan Teymur Teymurov məhkəmədə gəlib ifadə verdi ki, sizinlə onun arasında verilən məbləğlərlə bağlı iddiyət var. Ümumiyyətlə, bunu təsdiq edirsizmi?" sualını ünvanlayıb.



R. Xələfov isə ilkin ifadəsindən başqa bütün ifadələrini təsdiq etdiyini qeyd edib: "Amma mənim Teymur Teymurovla heç bir problemim olmayıb. İbtidai istintaqda ilkin ifadəmi verən zaman fikirli olmuşam".

R. Xələfovun ibtidai istintaqda ilk ifadəsinin həm Nizami Məmmədov, həm də yoxlayıcıların ifadələri ilə üst-üstə düşməməsi barədə suala isə o, belə cavab verib: "Biz həmin zabitlərlə bir yerdə xidmət etmişik. Bu pulları bir yerdə mənimsəmişik. Bu barədə danışmaq istəmirəm".

Vəkil R.Mirmehdizadə daha sonra R.Xələfovla Bayram Bayramov arasında alınan məbləğlə bağlı çox ziddiyətli məqamların olduğunu deyib.

Bayram Bayramov bildirib ki, R.Xələfovla birlikdə 2021-ci ildə onun maliyyə xidmətinin rəisi olduğu korpusda yoxlama aparıblar: "Yoxlamaya gələnlər bilinən vəsaitlərlə bağlı 30 faiz, bilinməyən vəsaitlərlə bağlı isə 60 faiz alıblar. "N" saylı korpusda 2021-ci ilin təftişi zamanı İsmayılın maşınında Həsən Paşayevlə Rafael Xələfova 1 milyon 263 min manat təftiş pulu vermişəm. Ancaq o, daha aşağı olan başqa məbləğ aldığını deyir".

R.Xələfov bildirib ki, həmin məsələ ilə bağlı bundan əvvəl dindirmə zamanı ətraflı ifadə verib: "Boş-boş suallara cavab vermək istəmirəm. Pulu Həsənə verdi, ya mənə verdi fərqi yoxdur. Umumilikdə Bayram həmin gün 950 min manat pul verib".

Daha sonra Cəlal Kazımovla R.Xələfovun ifadələri arasında verilən məbləğlə bağlı mübahisəli rəqəmlər olduğu diqqətə çatdırılıb. Cəlal Kazımov hakimlərə müraciət edərək R.Xələfovun oğlunun hazırda məhkəmə zalında olduğunu deyib və onu zaldan çıxarmağı xahiş edib: "Bəzi məsələlər var, onun atası barədə bu sözləri eşitməyini istəmirəm".

Hakim Fikrət Əliyev məhkəmə prosesinin qapalı keçirilmədiyini deyib və R.Xələfovun oğlunun zalda oturmasının hər hansı qanun pozuntusu olmadığını bildirib.

Məhkəmə bu məsələ müzakirə edilmədən davam etdirilib.

C.Kazımov deyib ki, R.Xələfovla bəzi məbləğlərlə bağlı aralarında ziddiyət var: "Ziddiyyət 210 min, Fariz Nəbiyevlə bağlı 70 min, bir də inspeksiya pulu adı ilə 2 dəfəyə verilən 140 minlə bağlıdır. Bu pulların hamısını Rafael Xələfova vermişəm".

R.Xələfov isə deyib ki, həmin məbləğlərin hamısını aidiyyəti üzrə çatdırıb.

C.Kazımov onu da qeyd edib ki, 143 milyonluq mənimsəmə üzrə cinayət işində tək 4 nəfərlə bağlı 7 milyon 555 min 216 manat çatışmazlıq var, bu pullar da Rafael Xələfovdadır: "O, bu barədə açıqlama verməlidir".

R. Xələfov isə deyib ki, həmin məsələ ilə bağlı istintaqda hər şeyi danışıb: "Bu məbləği birinci dəfədir ki, burada eşidirəm".

Daha sonra R. Xələfov, 4 milyon 600 min manatın MN-in Maliyyə və Büdcə İdarəsinin rəisi olmuş general Namiq Poladova verilməsi ilə bağlı suallara belə cavab verib: "Namiq Poladov məni sürgün etmişdi. Amma məni bu barədə bir söz deyə bilmərəm. Bilirəm ki, məndən söz almaq istəyirlər".

Növbəti proses oktyabrın 11-də davam edəcək.

Qeyd edək ki, Müdafiə Nazirliyinin Maliyyə və Büdcə İdarəsinin sabiq rəisi general-mayor Nizami Məmmədov, Hərbi Hava Qüvvələrinin (HHQ) Maliyyə Xidmətinin sabiq rəisi polkovnik Cəlal Kazımov, Quru Qoşunların maliyyə idarəsinin sabiq rəisi Bayram Bayramov, Hərbi Dəniz Qüvvələrinin maliyyə xidmətinin sabiq rəisi Vüsal Əlizadə, Müdafiə Nazirliyinin Satınalmalar və Təchizat İdarəsinin sabiq rəisi polkovnik Mahir Şirvanov, həmçinin nazirliyin Satınalmalar və Təchizat İdarəsinin sabiq rəisi Məlikməmməd Qurbanov, nazirliyin mənzil istismar idarəsinin sabiq rəisi polkovnik Fikrət Mirzəyev Dövlət Təhlükəsizliyi Xidmətinin keçirdiyi xüsusi əməliyyat nəticəsində həbs ediliblər.

Təqsirləndirilən şəxslər dövlət büdcəsindən ayrılan pulları mənimsəməkdə ittiham edilirlər.

Xatırladaq ki, cinayət işi üzrə ümumilikdə dövlətə dəymiş ziyan 143 milyon manatdır.

Cinayət işləri ayrı-ayrı icraatlarda baxılması üçün məhkəməyə göndərilib. İstintaq dövründə dövlətə vurulmuş ümumi ziyanın 40 milyon manatı ödənilib.

Cinayət işi üzrə Maliyyə Nazirliyi zərərçəkmiş qismində tanınıb. Təqsirləndirilən şəxslərin hər biri Cinayət Məcəlləsinin 179.4-cü (xüsusi ilə külli miqdarda ziyan vurmaqla mənimsəmə törətmək) maddəsi ilə ittiham irəli sürülüb.

**Hazırladı: RƏŞAD**

Allah-Təala münasib bilsəydi, bizi də bir çox millətlər kimi vətənpərvər, təəssübkeş, torpağını, xalqını sidqürəklə sevən və onun uğrunda özünü fəda etməyə hazır olan millət yaradardı; onda yəqin ki, "gəlin, birləşək" kəlmələri də zarafatdan başqa bir şey olmazdı.





Eldəniz QULİYEV

# "Ölkənin bütün demokratları, birləşin!"

## Necə birləşək, kimlə və niyə birləşək? - bax, budur sual!

Baxın, daha çox hansı xalq birləşmək istəyində bulunur? Əlbəttə, bir olmayan xalq. Yaxşı, bəs o hansı "bir olmayan" xalqdır ki, birləşməyə "gərnəşmə" kimi baxır? (Cavabı hamı bildiyi üçün yazmıram).

Əslində, gərnəşmənin özü də iki cür olur: yuxudan duranda və yatmaq istəyəndə. Bizlər bu gərnəşmələrin ikincisinə daha artıq meylli olduğumuzdan, tam əminliklə deyirəm ki, Oblomov xalis azərbaycanlı olubdur..

Heç, "gəlin, ayrılaq" deyən hər hansı bəndeyi-həqirə rast gəlmisizmi? Yəqin ki, yox. Hamı - əvvəlkilər də, indikilər də, iqtidar da, müxalifət də, hətta nə müxalifət, nə iqtidar olanlar da xorla: "birləşək", "can bir olaq" deyir, amma bunu necə, nə sayaq eləyək? - hə, bax bu, doğrudan da, çox qəliz və mütəqələl bir məsələdir...

Birləşək! Axı necə? Nə sayaq?..

Yadınızdadırsa, hamımızın tanıdığı "Bakılı oğlanlar"ın məşhur kapitanı Anar Məmmədxanlı da bir ara istədi ki, Milli Məclisin üzvlərini birləşdirib, onlardan qəşəng bir "Şən və Hazırcavablar Klubu" qurub-quraşdırsın. Ancaq tezcə də başa düşdü ki, bu iş çox müşkül məsələdi, yəni gördü ki, MM üzvlərinin bir hissəsi hazırcavabdır, ancaq şən deyil, o biri hissəsi şəndir, amma hazırcavab deyil. Qalan digər hissəsisə, nə şəndir, nə də hazırcavab. Odur ki, hörmətli millət vəkili daşı ətəyindən töküb, özünü siyasi texnologiyanın ağuşuna atdı.

Nəysə, mətləbdən uzaqlaşmayaq və razılaşaq ki, "birləşək", "həmrəy olaq", "gücümüz birlikdədir" və sair bu kimi ifadələr amorf sözlərdi və 70 il sərasər heç vəchlə birləşmək istəməyən proletarların ünvanına deyilib. Şəxsən mənimçün BİRLƏŞMƏK - konkret bir adamla, fərdlə, şəxs və şəxsiyyətlə, ya hər hansı kollektivlə bir araya gəlmək, ünsiyyət tapmaq, eyni məzhəbə qulluq etmək (eləcə də iki əks-cinsin izdivac qurub, üzr istəyirəm, bir yastığa baş qoyması) deməkdir. Hərçənd, mənim işim, necə deyərlər, Allaha qalıb. Yəni mən papağımı qabağıma qoyub ha fikirləşirəm, ha düşünüb-daşınıram... bu gün kimlə və necə birləşəcəyimi kəsdirə bilmirəm.

Özünüz deyin, təpədən-dırnağacan özü kimi olmayıb, heç vədə öz sözünü söyləməyən iqtidaryönlü, ya "yönsüz" adamlarla mən necə və niyə birləşim?

Yəni təpədən-dırnağa qədər özgə cildinə girib, guya öz sözünü deyən, eyni zamanda ancaq və ancaq öz qarnını güdən iddialı-hikkəli kəslərlə necə və hansı nöqtədə təmas tapım?..

Heç təpədən-dırnağacan özü olub və həmişə də öz sözünü deməyə çalışan (lakin sözün məbədinə, məğzinə gələndə, üstündə xəncər tapılan ləzgi kimi, "hələ vaxtı deyil", "dar gündə açıqlayacam", "zamana ehtiyacı var" və s. və i.a. - israr eləyən), hörmətli-izzətli bəzi müxalif bəylər və onların sağdışsoldışları ilə də bir araya gələ bilmirəm.

Birincilik üstdə hay-həşir salıb "əkil-bəkil quş idi..." saya-saya heç vəchlə ikinci olmaq istəməyən "saqqallı uşaqlar"la, - bu küsəyən "pəstərəcik" "tıq-tıq xanım"larla, eləcə də bu gün cəmiyyətin çoxsaylı problemlər içərisində qovrulduğu bir vaxtda, "əməkdaşlıq, tərəfdaşlıq, inteqrasiya, müttəfiqlik, funksional birlik" və digər bu sayaq "nağara" sözlər səngərində gizlənərək "qan çıxan yeri" qaşıya-qaşıya siyasətin topdansatışıyla məşğul olan bəzi ağzıgöyçəklərlə həmrəyliyə gəlib neynəmək olar?!..

Mən, özünü hər bir Azərbaycan vətəndaşının qarantı adlandırıb, ancaq hər bir azərbaycanlının başı üzərində bir "qranat" asan hakimimütləq sayılanlarla da, millətin halalca ruzisini loppadan udub yeyənlərlə, əsgərinin bit-birə içində, ziyalısının dilənçi kökündə yaşamasına, vətəndaşının günbəgün ləyaqət hissini, mənəviyyat və mədəniyyətini itirməsinə laqeyd-laqeyd baxan (bəzi hallarda isə bundan ləzzət alan) harın müştəbehlərlə də yol getmək istəmirəm; çünki bu yolun əvvəli olmadığı kimi, axırı da yoxdur.

Təbiətim belədi, neynim?!

Xalqın, millətin alın təri və yanıqlı "ah"ları hesabına dəbdəbəli həyat sürən, səkkiz-doqquz, (bəzənsə, doqquz-on) rəqəmlərlə hesablanan əcnəbi pullarını elə əcnəbi banklarında da yatıran və buna rəğmən, qabağına çıxan dilənçiyə bir "abbası" belə qıymayanların sözünə, özünə, nəsil-nəcabətinə necə inanım axı?!

Damarlarında qan əvəzinə, yalan axan, bunu üzlərinə çırpanda, şit-şit irişib: "noolsun, qan da, yalan da qırmızıdı daa, bəə!" - deyən, millət üçün kütləvi qırğından, müharibə və yoluxucu epidemiyalardan daha betər bəlalar gətirən bu YALAN daşıyıcılarını necə, nə səbəbə qəbul və "həzm" eləyim?!

Günü bu gün, məni lap tikə-tikə doğrasalar da, öz dinini, imanını danıb əcnəbilərin hər bir hərəkətinə ləbbeyk deyə-deyə, göz önündəcə yalaqlaşıb maviləşən dəyyuslarla yan-yana dayana bilmərəm. Bu ələbaxanlarla hansı birlikdən, hansı alyansdan və hansı əməkdaşlıqdan danışmaq olar?!

Əlbəttə, mən çox istərdim ki, bu gün iqtidarlı-müxalifətli, ağlı-qaralı hamımız birləşək, bir olaq; dərdimiz də xeyrimiz kimi bir olsun. Ancaq onda gərək vasvasılığı-zadı bir kənara qoyub özümü bayaqdan barəsində "xoş sözlər" dediyim "cənablar", "bəylər" və "müəllimlər"lə bir araya gəlməyə zorla məcbur edəm. Deməli, onda gərək mən də riyakarlığa, oğruluğa, yalana, xəbisliyə, hərisliyə, naqisliyə baş vuram. Və ya haqqında nədənsə, həmişə iftixar hissi ilə danışdığımız həmin o məşhur "el palazı"nın qırağında özümə xudmani bir yer eləyib... sürünəm... Güzgüyə, ya övladlarımın gözünə baxanda da, utana-utana, xəcalət çəkə-çəkə baxam.

Ya da onda gərək, mən də, dovşana "qaç!", tazıya "tut!" komandası verməkdən xoşhallanan, ancaq onların hər ikisini möhkəmmöhkəm tutub-saxlayıb, buraxmayan vəzifəli cənablar üçün gah dovşan, gah da tazı cildinə girə biləm!..

Mən bunu bacarmaram. Mən bunu istəmirəm. Və mən buna nifrət eləyirəm!

Mənəviyyatımızın canına günbəgün, saatbasaat hoparaq onu eybəcər hala salıb deformasiyaya uğradan yalana, biganəliyə, riyakarlığa, xofa qarşı loyal münasibət göstərən, - kimliyi, nəçiliyindən asılı olmadan - hər bir azərbaycanlı, bu gün ilk növbədə, özü, öz ailəsi, öz xalqı, öz vətəni qarşısında məsuliyyət daşıyır; gec-tez, ən azı, öz vicdanı və Allahı qarşısında cavab verməli olacaq (əlbəttə, o vaxtacan vicdan deyilən şeydən onda bir əlamət qalacaqsa).

Dildə "vətən", "xalq", "torpaq" deyib, xəyalında bütün bunları vəzifə kürsüsü formasında təsəvvür eləyən, var-dövlət, cah-calal şəklində görən bir para (qəsdən "bir para" deyirəm, çünki fərqli düşünən, fərqli həyat tərzi seçənlər, şükürlər ki, az deyillər) psevdo-patriotlarla haracan getmək olar və getmək lazımdırmı?!

Mən sözləri birləşmək, işi-peşələrisə ayrılmaq olan, millətin taleyüklü məsələlərini öz müəmmalı oyunlarının atributuna çevirmiş iqtidar, ya cib müxalifəti cəbhəsindəki haramzadalarla dil tapmaq, onlarla bir məzhəbə qulluq eləmək istəmirəm!

Kimi dindirirsən: "vəzifə, ixtiyar, səlahiyyət, hakimiyyət, mənsəb, pul və qan-qan" deyir. Bir köpəyoğlu demir ki, ayə, bu millət ölür axı!.. Ölür ey, bu millət!! Daha ölümdən o yanası yoxdu ha!!!

Ay başınıza dönüm, ay atam, ay babam, heç olmasa dinməyin, heç olmasa, toxunmayın bu bədbəxt millətə! Qoyun öz bildiyi kimi rahatca ayağını uzadıb tələf olsun... Vallah, özünüz birləşsəniz, - elə bu, kifayətdir. "Birləşək", "Bir olaq" deyə-deyə bu milləti bir az da didib-parçalamağın nə mənası var axı? "Tək əldən səs çıxmaz" deyə-deyə, iki əllə çırtma çalıb bu milləti dingildətməyə nə hacət?!

Sağa baxıram, sola baxıram, qabağa, arxaya baxıram - ağlım bir şey kəsmir ki, kəsmir. Lap nağıllardakı kimi: "Sağa getsən - öləcəksən. Sola getsən - sağ qalmayacaqsan, düz getsən - ölməyinə ölməyəcəksən, amma sağ da qalmayacaqsan".

Arxa da ki... həmişəki kimi, "zanitdi".

Bə neyləyək?.. İki "daşın" - iqtidar olmaq istəyən müxalifətlə, müxalifət olmaq istəməyən iqtidarın arasında əsir-yesir qalmışıq. Vallahi, baş açmalı məsələ deyil...

Çox təəssüf və səd heyf ki, müxalifəti elə, iqtidarı belə olan millətin durumu ELƏ BELƏ də olmalıdır.

Başağrısı olmasın, özlüyümdə çox fikirləşir, çox çək-çevir edirəm və axırda deyirəm ki, DƏRDDƏN, AĞRIDAN da artıq milləti yoğurub, komalayıb birləşdirən bir "zad" ola bilərmi görən? Dərd, ağrı da ki, "maşallah", bizdə kefin istəyən qədər - çəkə-çəkə az qala çəkələyə dönmüşük. Amma qəribədi: eyni dərd, eyni ağrı və eyni problemlər içində bata-bata, yenə də dikəlibən bir-birimizə əl uzatmaq, dayaq olmaq istəmirik ki, istəmirik.

Niyə axı? Nə üçün? Nə səbəbə?

Yəqin millət də kişi kimi başıpapaqlı olmalıdı. Papaq əvəzi başına nimdaş "şapka" taxanda, əlbəttə ki, başıqapazlı olur və nəticədə öz kəlmeyi-şəhadətini oxumaq zorunda qalır.

Ey, cənab, bəy, müəllim, yoldaş, qardaş, a gədə, atam balası, vətən övladı, canım-ciyərim, elimobam! Kəlmeyi-şəhadətini bilirsənmi? Ey, e-eheyy!!!

Əlqərəz... Allah baisin evini yıxsın!

...Barama qurdutək yaşamaqla, tısbağatək qına çəkilməklə nə əldə etmək olar?.. Qəssab bıçağı görmüş qoyun kimi taleyimizlə barışıb: "belə yazılıb, yazıya pozu yoxdu" deyə-deyə, özümüzçün uydurduğumuz yalançı ALIN YAZISInı "Şöhrət" ordeni kimi sinəyə taxıb yaşamaqmı olar?!

Ancaq gəlin, bir şeyi unutmayaq: əgər Allah-təala həqiqətən də alnımızda günahlarımıza görə nə vaxtsa başımıza daş düşəcəyini yazıbsa, bu, heç də o demək deyil ki, biz günü bu gün durub başımıza çırpmağa özümüz daş axtarmalıyıq.

Yox və əlbəttə ki, yox!

Vəlvələ kənd sakini Niyazova Rəhigül Fiyaz qızının 22 il istifadəsində olan torpaq sahəsini qonşusu necə və hansı yollarla ələ keçirib...

# Qubada böyük saxtakarlıq

## Məhkəmələr qanunu deyil, qanunsuzluğu müdafiə edib

**Quba rayonu, Vəlvələ kənd sakini Niyazova Rəhigül Fiyaz qızı "Hürriyyət"in redaksiyasına gələrək, qarşılaşdığı haqsızlıqları dilə gətirib. Qonşusu Balakişiyev Qərib Bayram oğlu ilə aralarında torpaq problemi olan şikayətçi deyir ki, məhkəmələr ədaləti bərpa etmək yerinə, qanunsuz qərar çıxarıblar.**



Rəhigül Niyazovanın sözlərinə görə, 2000-ci ildə qaynı Əliyev Eldar Aydın oğlu ailəsi ilə birlikdə Rusiyaya, oradan isə Qazaxıstana köçüb. Həmin tarixdən Vəlvələ kəndində qaynının və həyat yoldaşı Mahmudova İsminaz Əhməd qızının mülkiyyətində olan 1,24 ha torpaq sahəsi, özlərinin razılığı əsasında, onun tərəfindən istifadə olunub. 2022-ci ilə kimi həmin torpağı əkib-becərib, vaxtı-vaxtında verigisini də ödəyib. Hətta həmin torpağa görə ona dövlət tərəfindən subsidiya da verilib. Daha sonra - 2013-cü ildə qaynı və həyat yoldaşı öz adlarına olan torpaq sahəsini idarə etməsi və onun barəsində sərəncam verməsi üçün onun (Niyazova Rəhigül Fiyaz qızının - red.) adına etibarənamə göndərib. Bu etibarnamə 2038-ci ilədək qüvvədədir.

2008-ci ildə həmin torpaq sahəsinin yerləşdiyi ərazidən dövlət əhəmiyyətli su kanalı çəkilib. Qaynının mülkiyyətində olan 1,24 ha torpaq sahəsinin 5236 kv.m-i su kanalının ərazisinə düşdüyündən, dövlət tərəfindən ona təxminən 3 min dollar kompensasiya ödənilib. 2007-ci ildə qaynı rəhmətə getdiyindən, həmin pulu bank vasitəsilə, onun bacısı Əliyeva Səlimə Aydın qızının adına ünvanlamaqla, mərhumun ailə üzvlərinə göndərib.

R.Niyazova bildirir ki, iki il əvvəl qonşusu Balakişiyev Qərib Bayram oğlu qaynı Əliyev Eldar Aydın oğlu və həyat yoldaşı Mahmudova İsminaz Əhməd qızının mülkiyyətində olan torpaq sahəsini satın aldığını bildirib və ondan həmin sahəyə daxil olmamağı tələb edib. Q.Balakişiyev iddia edib ki, torpağı 23.07.2005-ci il tarixində Quba rayon Dövlət Notariat Kontorunda bağlanılan 4-Ə-389 reyestr nömrəli alqı-satqı müqaviləsi əsasında alıb. Hətta o, sonradan Əliyev Eldar Aydın oğlu və həyat yoldaşı Mahmudova İsminaz Əhməd qızının adına olan 7135 kv.m torpaq sahəsinə reyestrdən çıxarış da alıb.

Rəhigül Niyazova deyir ki, qaynına məxsus torpağa iddia edən qonşusundan bu sahəni hansı yolla əldə etdiyini, kimdən aldığını, Qazaxıstana gedib-getmədiyini soruşub. O isə Qazaxıstana getmədiyini, torpağı Azərbaycanda alqı-satqı yolu ilə aldığını iddia edib...

Rəhigül Niyazova bildirir ki, qaynı Əliyev Eldar Aydın oğlu və həyat yoldaşı Mahmudova İsminaz Əhməd qızı 2000-ci ildən sonra Azərbaycana gəlmədiyindən, onların adına olan torpaq sahəsi saxta yollarla mənimsənilib. Onun sözlərinə görə, istər 2005-ci ildə Quba rayon Dövlət Notariat Kontorunda bağlanılan alqı-satqı müqaviləsi, istər də həmin torpaq sahəsinə dair reyestrdən çıxarış saxtadır. Çünki nə 2007-ci ildə rəhmətə gedən qaynı, nə də onun həyat yoldaşı həmin torpağı satmayıblar, üstəlik, ondan başqa kimsəyə də etibarnamə verməyiblər. Bu baxımdan, R.Niyazova hesab edir ki, sözügedən alqı-satqı müqaviləsi saxta yollarla köhnə tarixə bağlanılıb. Dediyinə görə, Ədliyyə Nazirliyinin Notariat, qeydiyyat və reyestr baş idarəsi də bu sənədin saxta olduğunu təsdiq edib. Belə ki, Dövlət Notariat Arxivinin rəisi Fuad Əkbərovun imzası ilə vəkil sorğusuna verilən cavabda sözügedən (4-Ə-389 reyestr nömrəli) alqı-satqı müqaviləsinin arxivdə olmadığı qeyd olunub. Eynilə, Dövlət Sərhəd Xidmətinin Sərhəd Nəzarəti rəisinin birinci müavini Azad Qasımov da quruma daxil olan soruğuya cavab olaraq bildirib ki, Əliyev Eldar Aydın oğlu və həyat yoldaşı Mahmudova İsminaz Əhməd qızının 2022-ci ildən 2023-cü il tarixinədək dövlət sərhədindən hərəkətləri barədə İAMAS bazasında məlumat qeydə alınmayıb.

R.Niyazova bütün bunlardan sonra Quba rayon Dövlət Notariat Kontorunda bağlanılan 23.07.2005-ci il tarixində 4-Ə-389 reyestr nömrəli alqı-satqı müqaviləsinin etibarsız hesab edilməsi ilə bağlı məhkəməyə müraciət edib. Quba Rayon Məhkəməsinin hakimi Həsənov Rahim Təşəkkül oğlunun sədrliyi ilə onun iddiasına baxılıb. Lakin hakim belə qərara gəlib ki, "Niyazova Rəhigül Fiyaz qızı həmin iddia ilə məhkəməyə müraciət etmək üçün subyektiv hüquqa malik deyildir". Bu səbəbdən də onun iddiası qəbul edilməyib və qarşı tərəfin xeyrinə qərar çıxarılıb. Şikayətçi isə deyir ki, qaynı Əliyev Eldar Aydın oğlu və həyat yoldaşı Mahmudova İsminaz Əhməd qızı tərəfindən 2013-cü ildə ona verilən 25 illik etibarnamə əsasında sözügedən torpaq sahəsi üzərində bütün səlahiyyətlərə sahib olduğundan, məhkəmənin məlum qərarı tamamilə qanunsuzdur. Şikayətçi onu da vurğulayır ki, Sumqayıt Apellyasiya Məhkəməsinin Mülki Kollegiyası və Ali Məhkəmənin Mülki Kollegiyası da birinci instansiyanın - Quba Rayon Məhkəməsinin qərarını qüvvədə saxlayıb.

"Biz Konstitusiya Məhkəməsinə müraciət edəcəyik. O da işə ədalətli baxmasa, Avropa İnsan Haqları Məhkəməsinə müraciət etməyə məcburuq. Doğrudur, bunun istəmirik, Azərbaycan bizim dövlətdir, öz problemimizi daxildə həll etmək istəyirik. Amma bu qədər də haqsızlıq olmaz", - deyə şikayətçi vurğulayır.

Sonda isə Rəhigül Niyazova haqlı olara sual edir ki, əgər sözügedən torpaq sahəsi, iddia etdiyi kimi, 2005-ci ildən qonşusu Balakişiyev Qərib Bayram oğluna məxsus idisə, o halda niyə 2022-ci ilədək "öz yerinə" sahib çıxmayıb? Niyə bu müddət ərzində dövlət tərəfindən ayrılan subsidiyalardan faydalanmaq istəməyib? Üstəlik, 2005-ci ildən bu torpağı almışdısa, bir hissəsi kanala düşdüyü üçün dövlət tərəfindən ayrılan kompensasiya niyə Balakişiyev Qərib Bayram oğluna deyil, ona verilib?

Əlbəttə, R.Niyazovanın rəsmi qurumlara ünvanladığı bu kimi sualları çoxdur. Lakin o hesab edir ki, hazırda rəsmi qurumlar da bu problemin həllində maraqlı deyillər. Çünki sözügedən alqı-satqı müqaviləsinin saxta olduğu təsdiqlənərsə, çoxları qanun qarşısında cavab verməli olacaq. O cümlədən, torpaq sahəsinə reyestrdən saxta çıxarış verən şəxslər də hüquq müstəvisində hesabat verməli olacaqlar. Ən azı ona görə ki, Dövlət Notariat Arxivində kökü olmayan, saxta alqı-satqı müqaviləsi əsasında bu torpağa necə çıxarış verilib?!

Bu və digər səbəblərdən də istər məhkəmlər, istər də dövlət qurumları qanunsuzluğu, bir növ, müdafiə etməyə məcbur qalıblar. Rəhigül Niyazova isə öz hüquqları uğrunda sonadək mübarizə aparmaqda israrlıdır...

**Hazırladı: Jalə FAMİLQIZI**

**Redaksiyadan: Mövzunu diqqətdə saxlayacağıq. Məqalədə adı keçən şəxslərin və qurumların mövqeyini dərc etməyə hazırıq.**



AZƏRBAYCAN RESPUBLİKASININ ƏDLİYYƏ NAZİRLİYİ
DÖVLƏT NOTARİAT ARXİVİ

MINISTRY OF JUSTICE OF THE REPUBLIC OF AZERBAIJAN
STATE NOTARY ARCHIVE

AZ1106-Bakı şəhəri, Ziya Bünyadov prospekti, 86 "B"
Telefon/Faks: (99412) 561-77-04, 562-91-99
İnternet səhifəsi: www.justice.gov.az

Azerbaijan, Baku-AZ1106. Ziya Bunyadov Ave. 86"B"
Phone/Fax: (99412) 561-77-04, 562-91-99
E-mail: notvva@justice.gov.az

№ 0/01-8103/14 "05" 12 2022 il

Xaçmaz rayon vəkil bürosunun vəkili

cənab Şahin Mütəllimova

24 noyabr 2022-ci il tarixli,
Ş21/48 nömrəli maktuba

Hörmətli Şahin müəllim,

Quba rayon dövlət notariat ofisində 23(13) iyul 2005-ci il tarixdə 4Ə-389 reyestr nömrəsi ilə təsdiq edilmiş torpağa dair alqı-satqı müqaviləsinin surətinin istənilməsi barədə Dövlət notariat arxivinə daxil olmuş müraciətinizə baxılmışdır.

Bildiririk ki, həmin dövlət notariat ofisində 23(13) iyul 2005-ci il tarixdə 4Ə-389 reyestr nömrəsi ilə təsdiq edilmiş müqavilə və onun qeydə alındığı reyestr kitabı arxivə təhvil verilməmişdir.

Bu səbəbdən xahişinizin təmin olunması imkan xaricindədir.

Hörmətlə,

Arxivin rəisi Fuad Əkbərov



Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti
Sərhəd Nəzarəti

Az-1044, Bakı şəhəri, Binə qəsəbəsi, Heydər Əliyev Beynəlxalq Aeroportu,
tel: (012) 504-82-39, faks: (012) 504-82-39
e-mail: office@dsx.gov.az

"25" 08 2023 il №3-28-22/2-3117/23

Xaçmaz rayon vəkil bürosuna

14.08.2023-cü il tarixli
H23/31 nömrəli sənədə

«Giriş-çıxış və qeydiyyat» idarələrarası avtomatlaşdırılmış məlumat-axtarış sistemində (İAMAS) şəxslərin dövlət sərhədindən hərəkətləri barədə məlumatlar 2001-ci il tarixdən etibarən yerləşdirilməsini nəzərə alaraq, 16.02.1970-ci il təvəllüdlü Əliyev Eldar Aydın oğlunun və 09.09.1970-ci il təvəllüdlü Mahmudova İsminaz Əhməd qızının 2002-ci il tarixədək dövlət sərhədindən hərəkətləri barədə məlumatın təqdim edilməsi texniki cəhətdən imkanımız xaricindədir.

Bununla yanaşı, 16.02.1970-ci il təvəllüdlü Əliyev Eldar Aydın oğlunun və 09.09.1970-ci il təvəllüdlü Mahmudova İsminaz Əhməd qızının 01.01.2002-ci il tarixdən 15.08.2023-cü il tarixədək dövlət sərhədindən hərəkətləri barədə İAMAS bazasında məlumat qeydə alınmamışdır.

Hörmətlə,

Sərhəd Nəzarəti rəisinin birinci müavini
polkovnik Azad Qasımov



Azərbaycan Respublikasının
İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti
Daşınmaz Əmlakın Dövlət Kadastrı və Reyestri publik hüquqi şəxsi

5 saylı XAÇMAZ ƏRAZİ İDARƏSİ

«22» 07 2022il. № 22342000638B

Azərbaycan Respublikası Vəkillər Kollegiyası
Xaçmaz rayon Vəkil Bürosunun vəkili
Məlikov Hacıbala Məlik oğluna

14 iyul 2022-ci il tarixli,
H-22/14 nömrəliyə

Məlumatın təqdim edilməsi barədə

Sizin JN-0059 KOD 30310018 nömrəli "Torpağa mülkiyyət hüququna dair dövlət akt"ında göstərilmiş 7135.00 kv.metr torpaq sahəsinə dair digər şəxsin adına dövlət reyestriindən çıxarışın, plan və ölçüsü sənədinin verilib-verilməməsi barədə arayışın, əgər verilmişdirsə həmin sənədlərin təsdiq olunmuş surətlərinin və onların verilməsinə üçün əsas olmuş sənədlərin surətlərinin təqdim edilməsi ilə bağlı sorğunuza Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələrinin Dövlət Xidməti yanında Daşınmaz Əmlakın Dövlət Kadastr və Reyestri publik hüquqi şəxsinin 5 saylı Xaçmaz Ərazi İdarəsində baxılmışdır.

Bununla bağlı bildiririk ki, JN-0059 KOD 30310018 nömrəli "Torpağa mülkiyyət hüququna dair dövlət akt"ında göstərilmiş 7135.00 kv.metr torpaq sahəsiQuba rayon Dövlət notariat kontorunun 23.07.2005-ci il tarixli, 4-Ə-389 reyestr nömrəli alqı-satqı müqaviləsinə əsasən Balakişiyev Qərib Bayım oğlunun adına özgəninkiləşdirilmiş, dövlət reyestrindən Balakişiyev Qərib Bayım oğlunun adına 2821037289 qeydiyyat nömrəli, 303013114912 reyestr nömrəli çıxarış və torpaq sahəsinin planı və ölçüsü işlənmişdir.



"Vəkillər və vəkillik fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununun 15-ci maddəsinə əsasən vəkillər peşə fəaliyyətini həyata keçirməklə əlaqədar müstəqil araşdırmalar, sənəd toplamaq, hüquqi yardım göstərmək üçün zəruri olan arayışları və digər sənədləri idarə, təşkilat və müəssisələrdən tələb etmək, onlarla tanış olmaq və həmin sənədlərin surətlərini çıxarmaq, "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, daşınmaz əmlakın dövlət reyestrinin məlumatlarının alınması ilə bağlı əsaslandırılmış yazılı sorğular vermək hüququna malikdirlər.

Həmçinin nəzərinizə çatdırırıq ki, Azərbaycan Respublikası Vəkillər Kollegiyası ilə Əmlak Məsələləri Dövlət Komitəsi arasında 2 saylı İnzibati-İqtisadi Məhkəməsi tərəfindən təsdiq edilmiş Barışıq sazişinə əsasən Əmlak Məsələləri Dövlət Komitəsi və onun tabeliyində olan qurumlar vəkillər tərəfindən verilmiş sorğulara əsasən reyestr məlumatlarını təqdim edir.

Qeyd olunanları nəzərə alaraq JN-0059 KOD 30310018 nömrəli "Torpağa mülkiyyət hüququna dair dövlət akt" ında göstərilmiş 7135.00 kv.metr torpaq sahəsinə dair reyestrindən verilmiş çıxarışın və həmin çıxarışın verilməsinə əsas olmuş sənədlərin təsdiq olunmuş surətlərinin verilməsi mümkün olmamışdır.

Hörmətlə,
Rəis vəzifəsini icra edən, rəis müavini Fikrət Nuşiyev



№ 454
07 07 22

ARAYIŞ

Verilir Quba rayon İHB-nın Vəlvələ kənd İƏD üzrə nümayəndəliyi tərəfindən ondan ötrü ki, həqiqətən Əliyev Eldar Aydın oğlu Niyazova Rəhigül Fiyaz qızının ərinin qardaşıdır.

Arayış Axıska Türkləri İctimai Birliyinə təqdim etmək üçün verilir.

Quba rayon İHB-nın
Vəlvələ kənd İƏD üzrə nümayəndəsi: M.Məmmədov

Müavini: S.Babayev



AZƏRBAYCAN RESPUBLİKASI
QUBA RAYONU VƏLVƏLƏ BƏLƏDİYYƏSİ

Ünvan: Quba rayonu Vəlvələ kəndi
Tel: (023) 33-3-50-75 mob: (050) 557-84-56.

№ 69 «28» iyun 2022-ci il

ARAYIŞ

Verilir Quba rayonu Vəlvələ bələdiyyəsi tərəfindən ondan ötrü ki, həqiqətən mərhum Əliyev Eldar Aydın oğlunun Aqrar İslahat Komissiyası tərəfindən verilmiş 1.24 ha (Dövlət Aktı JN-0059,Kod 30310018) sahənin 0.71 ha torpaq sahəsi 2000-ci il tarixindən 01 yanvar 2022-ci il tarixədək Niyazova Rəhigül Fiyaz qızı tərəfindən əkilib-becərilmiş və həmin torpaq sahəsinə dair vergini ödəmişdir.

Arayış "AxsxaTürkləri" İctimai Birliyinə təqdim etmə üçün verilir.

Quba rayonu Vəlvələ bələdiyyəsinin sədri: T.Məmmədov

# Şəkər xəstələrinə ayrılan dərman niyə verilmir?



## TƏBİB-in tabeçiliyində olan tibb müəssisələri Nazirlər Kabinetinin qərarına məhəl qoymur

**Bakı şəhəri, Nərimanov rayon sakini Həsənov Əliməmməd Əliağa oğlu tərəfindən "Hürriyyət" qəzetinin redaksiyasına şikayət məktubu daxil olub. Şikayətçi bildirir ki, dövlət tərəfindən şəkər xəstələrinə ayrılan iynə və dərmanı ala bilmir:**

**"Hörmətli redaksiya!**

Bildirim ki, 2003-cü ildən şəkərli diabet xəstəliyindən əziyyət çəkirəm. TƏBB-in Nərimanov Tibb Mərkəzinin tabeliyində olan 1 nömrəli poliklinikanın endokrinoloji kabinetində 2-ci tip şəkərli diabet xəstəsi kimi qeydiyyatdayam. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 13 may 2005-ci il tarixli 87 saylı qərarında şəkərli diabet xəstələrinə dövlət tərəfindən pulsuz verilməli olan şəkərsalıcı dərman preparatlarının, özünə nəzarət vasitələrinin və tibbi xidmətin siyahısı qeyd edilmişdir. Qeydiyyatda olduğum Nərimanov rayon Tibb Mərkəzinin tərkibində olan 1 nömrəli poliklinika Nazirlər Kabinetinin qeyd edilən qərarından irəli gələn öhdəliklərini yerinə yetirmədiyi üçün 18.12.2023-cü il tarixində iddia tələbi ilə Nərimanov Rayon Məhkəməsinə müraciət etdim. İşə baxan hakim Aytən Novruzova iddiamın təmin edilməməsi ilə bağlı qətnamə qəbul etdi.

Hələlik qətnaməni əldə edə bilmədiyim üçün iddiamın təmin edilməməsinin səbəbi haqqında dəqiq heç nə deyə bilmərəm. Baxmayaraq ki, məsələnin mənim xeyrimə həll olunması üçün məhkəməyə kifayət qədər dəlillər təqdim edilmişdir.

Mənim iddia tələbimlə başlanılmış 2(005) -909 /2024- nömrəli mülki iş üzrə məhkəmə 12.03.2024-cü il tarixdə qərardad qəbul edilmişdir. Mənə qlukometr üçün test çubuqlarının (qanda və sidikdə şəkərin miqdarını müəyyən etmək üçün) verilməsinin zəruriliyi qeyd edilsə də, onların aylıq miqdarı barədə tibbi ekspertiza təyin edilmişdir. Halbuki Nazirlər Kabinetinin 13.05.2005-ci il tarixli 87 nömrəli qərarında şəkərli diabet xəstələrinin qanda şəkərinin miqdarına nəzarət etmək üçün (ayda 25 test çubuğu) pulsuz test çubuqlarının verilməsinin zəruriliyi, eləcə də miqdarı göstərilmişdir.

Ekpertizanın təyin edilməsi barədə məhkəməyə etiraz ünvanladım. Çünki "normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarları normativ hüquqi aktlar hesab olunur. Konustisiyanın 149-cu, həmçinin yuxarıda qeyd edilən qanunu 88-1-ci maddəsinə də uyğun olaraq ölkə ərazisində icrası bütün hüquqi və fiziki şəxslər üçün məcburidir.

Məhkəmə qərardadı ilə ekspert qismində Patoloji Anatomiya Birliyinə bu məsələ ilə bağlı ekspertizanın təyin edilməsinin qanunsuz olması barədə məktub göndərilmişdir. Buna baxmayaraq ekspertiza idarəsi səlahiyyət



Bakı şəhər Nərimanov Rayon Məhkəməsinin hakimi Aytən xanım Novruzovaya

2(005)-909/2024 saylı iş üzrə iddiaçı Həsənov Əliməmməd Əliağa oğlu tərəfindən

Möhtərəm Hakim!

12.03.2024-cü il tarixli Qərardadla təyin edilmiş tibbi ekspertiza ilə əlaqədar ekspert qarşısında qoyulmuş suallarla bağlı aşağıdakıları bildirməyi vacib bilirəm.

Ekspert qarşısında digər məsələlərlə yanaşı II tip şəkərli diabet xəstəsi kimi mənə özünənəzarət vasitələrinin verilməsinin zəruriliyi və aylıq miqdarı barədə suala cavab verilməsi tələb olunur. Qeyd etmək istəyirəm ki, Nazirlər Kabinetinin 13 may 2006-cı il tarixli 87 №-li Qərarının 1 №-li əlavəsində şəkərli diabet xəstələrinə pulsuz verilməli olan dərmanların və özünənəzarət vasitələrinin verilməsinin zəruriliyi, eləcə də aylıq miqdarı öz əksini tapmışdır. Normativ hüquqi aktlar haqqında Azərbaycan Respublikası Konstitusiya Qanununun 74.1.2-ci maddəsinə əsasən Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarları normativ hüquqi aktlar hesab olunur və Konstitusiyanın 149-cu, həmçinin yuxarıda qeyd edilən Qanunun 88.1-ci maddəsinə uyğun olaraq ölkə ərazisində icrası bütün hüquqi və fiziki şəxslər üçün məcburidir.

Bu səbəbdən də mən iddia tələbi ilə məhkəməyə müraciət edərək Nazirlər Kabinetinin Qərarının icrasının təmin olunması barədə qərar qəbul edilməsini xahiş etmişəm.

İddiaçı: Həsənov Ə.Ə.
28 mart 2024-cü il
Mob: (050) 285-00-15

həddini aşaraq, yanlış rəy vermişdir.

Ədliyyə Nazirliyinə göndərdiyim sorğuya cavab olaraq nazirliyin qanunvericilik baş idarəsindən aldığım cavab Nazirlər Kabinetinin qərarı ilə bağlı ekspertizanın təyin edilməsinin qanunsuzluğunu təsdiq edir.

Müşahidələrim göstərir ki, şəkərli diabet xəstələrinin böyük əksəriyyəti Nazirlər Kabinetinin qeyd edilən qərarından məlumatsız olduğunu nəzərə alaraq, həmin şəxslərin məlumatlandırılması məqsədilə Nazirlər Kabinetinin 13.05.2005-ci il tarixli 87 nömrəli qərarını surətini sizə göndərməklə, saytınızda və qəzetinizdə yayılmasına yardımçı olmağınız xahiş edirəm".

**Jalə FAMİLQIZI**
**Hurriyyet.az**

**Redaksiyadan: Yazıda adları qeyd olunan şəxslərin və qurumların mövqeyini dərc etməyə hazırıq.**



# YAP üzvünə "sən müxalifətçisən" deyib, tibbi xidmət göstərilmədi

## Vüsal Hümbətzadə: "Xəstəxananın direktoru dedi ki, siz müxalifətsiniz, bura başqa şeyə görə gəlmisiniz"

**"21.08.2024 -cü il tarixində qəfil halım pisləşdi, Bərdə Rayon Mərkəzi Xəstəxanasına yaxınlaşıb qeydiyyatdan keçib, növbə aldım. Birinci növbə mənim idi, 40 dəqiqə cərrah Elnurə Əliyevanı gözlədim. TƏBİB-in "qaynar xətti"nə zəng edib şikayəti bildirdikdən sonra Elnurə Əliyeva gəlib məni yoxladı və dedi ki, Otorinolarinqoloqa müraciət edin. Otorinolarinqoloqun isə limiti bitmişdi, mənim ağrılarım isə çox idi...".**

Hurriyyet.az xəbər verir ki, bunu Bərdə sakini Vüsal Hümbətzadə saytımıza bildirib.

O, daha sonra yazır: "Bərdə Rayon Mərkəzi Xəstəxanasının təcili təxirəsalınmaz tibbi yardım stansiyasına müraciət etdim. Amma təcili təxirəsalınmaz tibbi yardım stansiyasından mənə lazımı xidmət göstərilmədi. TƏBİB-in "qaynar xətti"nə zəng edib bu barədə şikayətimi bildirəndə həmin xəstəxananın mühafizəçisi mənə qulaq asırmış. O, yaxınlaşıb mənə dedi ki, direktor indi gəldi, maşından düşəcək, istəyirsinizsə şikayətinizi direktora bildirin. Mən də yaxınlaşıb direktor Vüsal müəllimə dedim ki, boğulma, boğazda və başda ciddi ağrılarım var... Mənə cavab olaraq dedi ki, beyninizə qan sızma olsa acildən həkimlər müdaxilə edəcək. Mən də qayıdıb dedim ki, gərək beynimə qan sızsın, sonra müdaxilə edəsiniz? Qayıdıb mənə bildirdi ki, biz ancaq təcili təxirəsalınmaz tibbi yardım stansiyasında növbəsiz olaraq qazilərə xidmət edirik. Siz başqa şeyə görə bura gəlmisiniz, müxalifətsiniz.

Mənim ağrılarım çox idi, mən əsəbi ola bilərdim, amma bir Azərbaycan Respublikası vətəndaşına hansısa xəstəxananın direktorunun "siz başqa şeyə görə bura gəlmisiniz, müxalifətsiniz" deməsi düzgün deyil. Mən Yeni Azərbaycan partiyasının üzvüyəm. Cənab Prezident son zamanlar bir-birinin ardınca etdiyi müxtəlif çıxışlarda əsas diqqəti əhalinin incidilməməsinin üzərinə çəkib. Amma görünən odur ki, Bərdə Rayon Mərkəzi Xəstəxanasını direktoru Vüsal Məmmədov bir vətəndaşın incidilməsinə səbəb oldu.

TƏBƏB isə məsələni ört-basdır edib, mənə başqa cavab göndərdi. Vüsal Məmmədov kimin adamıdır ki, İlham Hüseynov onu müdafiə edir?! Vüsal Məmmədov Bərdə Rayon Mərkəzi Xəstəxanasını "özəlləşdirib", özünü də oranın xanı elan edib. Vüsal Məmmədovun arxasında kim dayanır, onu bilmirəm, yəqin onlara güvənərək belə qoçuluq edir".

**Hazırladı: Jalə FAMİLQIZI**

**Redaksiyadan: Qarşı tərəfin mövqeyini dərc etməyə hazırıq.**

# Təhsil işçiləri Naxçıvandakı "yeniliyə" etiraz edir

## "Siniflərin birləşməsi müəllimlərin sonunu gətirəcək"

**Naxçıvan Muxtar Respublikası, Babək rayonunun bir qrup sakini tərəfindən Hurriyyet.az saytının redaksiyasına şikayət məktubu daxil olub. Şikayəti olduğu kimi dərc edirik:**

"Naxçıvan təhsilində baş verən haqsızlıqlar bitmir. Hazırda güclü ixtisarlar gedir. 18 uşaq üçün nəzərdə tu-



tulmuş sinif otağında 26 uşağı yığıb, birləşdiriblər. Buna görə də müəllimlərin dərs yükü azalıb. Bir sinif birləşəndə 36 saat dərs ixtisara gedir. Heç kəsin şikayətinə baxmırlar. Müəllim əziyyət çəkib, sertifikasiyadan keçir ki, 10 saat dərs desin? Belə haqsızlıq olar? Belə görünür ki, siniflərin birləşməsi müəllimlərin sonunu gətirəcək".

**Hurriyyet.az**

# Nəsrullahın öldürülməsi

**Artıq həftənin istirahət günlərində dünyanı çalxalayan hadisələrin baş verməsi bir ənənəyə çevrilib. HƏMAS-ın lideri İsmayıl Haniyənin sui-qəsdlə öldürülməsindən sonra, bu dəfə aradan götürülmə növbəsi "Hizbullah" lideri Həsən Nəsrullaha gəlib çatdı. Sentyabrın 27-də zərərsizləşdirilən Nəsrullah barədə rəsmi açıqlama sentyabrın 28-də verildi. Beləliklə, İranın növbəti qurbanı İsrailin ayaqları altına qoyuldu.**



## İsrailin regionda apardığı savaş əslində Vaşinqtonun maraqlarına xidmət edir...

Uzun müddətdir ki, özünü İslam dünyasının öndəri sayan İranın əslində nə İsraillə, nə də ABŞ-la düşmən və rəqib olmadığını yazırıq. Yaxın Şərqdəki hazırkı münaqişələrin mərkəzində İsrailin baş naziri ilə İranın ali lideri arasında uzun müddətdir davam edən oyun dayanır. Netanyahu hesablayıb ki, hətta İsrail Xameneyinin qondarma Müqavimət Oxuna - "İsrail və Qərbin maraqlarına zidd" olan regional silahlı şəbəkəsinə şiddətlə qarşı çıxsa belə, molla rejimi buna cavab olaraq çox da irəli gedən addım atmayacaq.

Beləliklə, "Hizbullah"ın 1992-ci ildən lideri olan Həsən Nəsrullah Beyrutun cənub hissəsinə İsrailin hücumları nəticəsində öldürüldü. Bu, Livan yaraqlılarının yüksək səviyyəli komandirlərini öldürən, "partlayan peycer əməliyyatı" da daxil olmaqla, ötən ay baş verən bir sıra dramatik hücumların sonuncusu idi. "Hizbullah" İsrail üçün ən əhəmiyyətli qeyri-dövlət təhdid kimi qəbul edilir. Yəni "Hizbullah" rəsmi dövlət ordusu olmasa da, İranın Livandakı silahlı qüvvəsi kimi çıxış edirdi. Nəsrullah isə şübhəsiz ki, İran oxunun ən güclü hərbi siması idi.

HƏMAS da bu İran oxuna daxildir. İsmayıl Haniyə iyulun 31-də Tehranda öldürüləndən bəri Yaxın Şərqdə bir çox insan İranın İsrailə hücum tamaşasına hazırlaşır və hamı gözləyirdi ki, bu, regionu genişmiqyaslı müharibəyə sürükləyə bilər. Amma cavab gəlmədi. Nəhayət, Tehran İsraillə ciddi eskalasiya riskinə getməmək qərarına gəldi. Hərçənd, dünya İranın İsrailə silahlı cavabına heç vəchlə şahidlik edə bilmədi. Xameneyi birbaşa qarşıdurmaya getməyərək, "strateji səbr" siyasətini davam etdirdi.

Nəsrullahın ölümünün Xameneyinin ehtiyatlı yanaşmasını dəyişib-dəyişdirməyəcəyi şübhəlidir. İranın Beyrutdakı səfirliyindən verilən açıqlamada "oyun qaydaları"nın indi dəyişdiyi iddia edilib və İsrail "uyğun cəza" ilə hədələnib. Görəsən, bu "uyğun cəza" nəyi təmsil edir? Əlsində, Tehran rəsmiləri nəzərəçarpacaq dərəcədə təmkinlidirlər. Bilirlər ki, "Hizbullah" komandirləri öldürüləndə onları başqa kadrlar əvəzləyəcək. Bu, İslam İnqilabı Keşikçiləri Korpusunun (SEPAH) Qüds Qüvvələrinin qurucusu və rəhbəri Əhməd Vahidinin tutduğu mövqe idi və onun "Hizbullah"ın bugünkü vəziyyətə gəlməsində çox rolu olub.

Konkret olaraq rəsmi Tehrana gəldikdə, əlbəttə, son həftələrdə təmkin nümayiş etdirməsinin köklü səbəbləri var. Yəni Nəsrullahın öldürülməsini nə qədər dəhşətli hesab etsələr də, hələ də "strateji səbr" siyasətinə sadiq qalmağa məcburdurlar.

İran bir neçə aydır ki, gərginliyi azaltmağa, regionun digər ölkələri və Qərblə danışıqlar aparmağa çalışır. Keçən həftə Nyu-Yorkda BMT Baş Assambleyası çərçivəsində prezident Məsud Pezeşkianın başçılıq etdiyi nümayəndə heyəti "Hizbullah" və HƏMAS-ı müdafiə etsə də, dinc əhval-ruhiyyənin hökm sürməsinə daha çox diqqət ayırdılar. Hətta Pezeşkian bir qrup amerikalı jurnalistə deyib ki, əgər İsrail belə etsə, İran da silahlarını yerə qoyacaq. Daha sonra xarici işlər naziri Abbas Əraqçi prezidentin belə bir bəyanatla çıxış etdiyini təkzib etsə də, İranın sərt tərəfdarları bunu təsdiqləyən səs yazısını mediaya sızdırdılar.

Əlbəttə, İranın bundan sonra nə edəcəyi Xameneyidən asılıdır. Dini lider başa düşür ki, barışmazlıq onun rejimi üçün intihara səbəb ola bilər. Buna görə də Qərbin sanksiyalarının ləğvinə çalışmaqla yanaı, ölkədə sabitliyə kömək edə biləcək danışıqlar üçün "suların durulmasını" sınaqdan keçirir. Onun Pezeşkiana açıq dəstəyi İran əhalisinin çoxunun və hətta bir çox qurumun nifrət etdiyi sərt xətt tərəfdarlarının oyununun qarşısına sədd çəkir.

İndi İran hökuməti daxilində Şeyx Nəsrullahın öldürülməsinə necə cavab veriləcəyi ilə bağlı fikirayrılıqları yaranıb. Mühafizəkarlar sərt cavab tələb edir, İranın yeni prezidenti Məsud Pezeşkianın başçılıq etdiyi mötədillər isə təmkinli olmağa çağırır. Bütün bunlar İranı və onun ali liderini "şpaqat" vəziyyətində qoyub.

Şeyx Nəsrullahı şəxsən tanıyan və hadisələrlə bağlı məlumatlandırılan dörd İran rəsmisi bildiriblər ki, Xamenei dostunun ölümündən çox sarsılıb və yas içindədir. Bununla belə, sakit və praqmatik mövqe tutmağa üstünlük verib. Xamenei ictimaiyyət qarşısında da təxminən eyni tonu vurdu. O, İsraili qınamaq əvəzinə, təmkinli bəyanatla çıxış edərək, Nəsrullahı müsəlman dünyasının aparıcı şəxsiyyəti və sözdə müqavimət oxu kimi tərifləyib və İranın "Hizbullah"ın yanında olacağını söyləyib.

Əsas nüans odur ki, Xameneyi İsrailə istənilən cavabı İranın deyil, "Hizbullah"ın verəcəyinə, İranın isə dəstəkləyici rol oynayacağına işarə edir. SEPAH-ın baş komandanı general Hüseyn Səlami də deyib ki, İsrailə zərbələri "Hizbullah", HƏMAS və Fələstin yaraqlıları verəcək. İranın keçmiş vitse-prezidenti Məhəmməd Əli Əbtahi şənbə günü Tehrandan verdiyi müsahibədə deyib: "Bu, inanılmaz dərəcədə ağır bir zərbə idi və real desək, bu itkidən qurtulmaq üçün yolumuz yoxdur. Biz müharibəyə getməyəcəyik, bu, masada deyil. Lakin İran regiondakı silahlı qruplaşmaları dəstəkləməkdə və Qərblə gərginliyi azaltmaqda da kursdan dönməyəcək. Bütün bunlar eyni vaxtda həyata keçirilə bilər".

Nəsrullahın ölüm xəbəri yayılanda, Xamenei öz evində Ali Milli Təhlükəsizlik Şurasının təcili iclasını çağırıb. Görüş zamanı insanlar Israilə necə cavab veriləcəyi ilə bağlı fikir ayrılığına düşüb. Keçmiş prezidentliyə namizəd Səid Cəlili də daxil olmaqla mühafizəkar üzvlər Netanyahu Tehranı müharibənin içinə salmazdan əvvəl, İranın İsrailə zərbə endirməklə tez bir zamanda məsələnin qarşısının almasının lazım olduğunu müdafiə edib.

Keçən həftə BMT-nin Baş Assambleyasında dünya liderlərinə hökumətinin gərginliyi azaltmaq və Qərblə barışmaq istədiyini deyən İranın yeni prezidenti Pezeşkian isə belə bir cavabın əleyhinə çıxış edərək deyib ki, İran tələyə düşməməlidir. İran rəsmiləri bildiriblər ki, Netanyahu daha geniş müharibəyə hazırlaşır.

Şuradakı digər mötədil şəxslər İsrailin "qırmızı xətti" keçdiyini desə də, İranın özünün hərbi infrastrukturuna ağır hücumlarla üzləşə biləcəyini, ölkənin buna tab gətirə bilməyəcəyini iddia edib. Digərləri isə Netanyahunun yalnız silah dilini anladığını və onun cavabının verilməli olduğunu bildirib.

Bir daha xatırladaq, Pezeşkian Nyu-Yorkda jurnalistlərə deyib ki, "İsrail silahlarını yerə qoysa, İran da silahlarını yerə qoymağa hazırdır" və o, Yaxın Şərqdə sülhün bərqərar olması üçün beynəlxalq gücləri müdaxilə etməyə çağırıb.

Məlumdur ki, "beynəlxalq güc"ün başında ABŞ durur. O halda Pezeşkian nəyə vurğu edib?

Yeri gəlmişkən, sülh çağırışına cavabın Nəsrullahın ölümü ilə verilməsindən sonra Pezeşkian özünü xilas etməkdən ötrü açıqladı ki, Tehran Qərblə razılaşmanın bir hissəsini yerinə yetirib və İsrailin HƏMAS-ın siyasi lideri İsmayıl Haniyəni öldürməsinə hərbi cavab verməyib. Lakin o, qeyd edib ki, ABŞ və Avropa ölkələrinin rəhbərləri Tehranın İsrailə zərbə endirməyəcəyi təqdirdə Livan və Qəzzada atəşkəs vəd edərkən yalan danışıblar, verdikləri sözü tutmayıblar.

Pezeşkianın çiçəyi burnunda hakimiyyəti dövründə İsmayıl Haniyənin və Nəsrullahın öldürülməsi onu İrandakı mühafizəkarlar qarşısında hədəfə çevirib. Bu səbəbdən də onlar Nyu-Yorkda prezidentin verdiyi barış mesajını tənqid edərək, bunu zəiflik nümayişi kimi dəyərləndiriblər. Hətta iddia olunub ki, məhz bundan sonra İsraili Nəsrullahı öldürməyə cəsarətlənib.

Mühafizəkarlar onu da təklif edib ki, İsraillə hərtərəfli müharibə vəziyyətində "Hizbullah"a kömək etmək üçün Livana da döyüşçülər göndərməlidir.

SEPAH-ın İranın İsrailə necə cavab verməsi ilə bağlı mövqe planlaşdıran strateqi müsahibələrində deyib ki, Tehranın təcili

Əlbəttə, İranın bundan sonra nə edəcəyi Xameneyidən asılıdır. Dini lider başa düşür ki, barışmazlıq onun rejimi üçün intihara səbəb ola bilər. Buna görə də Qərbin sanksiyalarının ləğvinə çalışmaqla yanaı, ölkədə sabitliyə kömək edə biləcək danışıqlar üçün "suların durulmasını" sınaqdan keçirir. Onun Pezeşkiana açıq dəstəyi İran əhalisinin çoxunun və hətta bir çox qurumun nifrət etdiyi sərt xətt tərəfdarlarının oyununun qarşısına sədd çəkir...

# ABŞ-a nə üçün lazım idi?



prioriteti "Hizbullah"ın ayağa qalxmasına kömək etmək və varisinin adını çəkməkdir. Təcili yeni komanda strukturu hazırlamaq və təhlükəsiz rabitə şəbəkəsi yenidən qurulmalıdır. Onlar bildiriblər ki, bu zaman "Hizbullah" İsrailə qarşı intiqamını planlaşdıra bilər. Görünür, elə SEPAH-ı oyundan kənar vəziyyətdə qoymaq üçün sentyabrın 29-da İranda yüksək rütbəli SEPAH və Husi liderlərini daşıyan helikopterin də qəzaya uğradığı açıqlandı. Əks halda, içində SEPAH və Husi liderlərini daşıyan İran helikopteri nə üçün məhz indiki vaxtada qəzaya uğrasın ki?!

SEPAH-ın iki üzvü bildirib ki, İran "Hizbullah"ın "özünə gəlməsinə kömək etmək" üçün Suriya yolu ilə Beyruta Qüds Qüvvələrinin yüksək rütbəli komandirini göndərməyi planlaşdırırdı. Bax, buna görə SEPAH öz başının dərdinə qalmalı oldu.

Maraqlıdır ki, ABŞ və İsrailin müdafiə nazirləri Ostin və Qalant Nəsrullahın öldürüldüyü gün, sentyabrın 27-də iki dəfə telefonla danışıblar. Söhbət zamanı Pentaqon rəhbəri bildirib ki, ABŞ İran və onun silahlı ünsürlərinin Yaxın Şərqdə münaqişəni genişləndirməsinə imkan verməyəcək. Həmçinin, ABŞ-ın müdafiə naziri Amerika və Avropada əlavə hərbi birləşmələrin maksimum səviyyəyə çatdırılmasını əmr edib və onlara Yaxın Şərqə yerləşdirilməyə hazırlaşmağı tapşırıb.

Bir daha bəzi nüansların altını cızaraq qeyd edək ki, İsrailin Livanda əməliyyatının başlamasına İranın ləng reaksiyası Tehranın Qərblə ehtimal olunan "anlaşmasıdır". Əkl halda nə üçün Beyrutun ortasında İsrail təyyarələrinin törətdiyi qırğından sonra iranlılar Təhlükəsizlik Şurasını çağırmağa belə, cəhd etməsinlər ki?! Əvəzində İran prezidenti Məsud Pezeşkian, "yaxşı, axı İran sizə nə pislik edir, mən indi sizin tərəfinizdəyəm və Kremli qınayıram, yeri gəlsə Rusiyaya silah tədarükünü də dayandıraram" üslubunda dünya güclərini sülhə çağırmaq üçün yeni çağırışlar etdi.

Yeri gəlmişkən, ötən həftə Moskva ilə Tehran arasında yaşanan gərginliyə da şahid olduq. Pezeşkiana dedilər ki, nüvə ambisiyalarından əl çək, onda razılığa gələ bilərik, yoxsa Qəddafi və Səddamın aqibətini yaşayarsan...

Bəs, İran nüvə silahından imtina edəcəkmi? Belə görünür ki, Tehran əvvəlki ritorikasını dəyişib, hərçənd əvvəllər də İran ikili oynayıb. Lakin Qəzza zolağında qətliam başlanandan sonra İsrailə qarşı daha təmkinli davranır. Əlbəttə, indiki vəziyyətdə ABŞ-ın açıq-aşkar cavab addımları olmadığı halda Tehran Qərbə doğru çox riskli addımlar atır. Üstəlik, yeni "islahatçı komanda" daha bir köhnə pilləkana qədəm qoyur - yenidən Avropa İttifaqı vasitəsilə Qərblə danışıqlara başlayır. Təsadüfi deyil ki, Pezeşkian bu yaxınlarda Borel və Makronla sevinclə görüşdü.

Digər yandan "Avropa üçlüyü" ilə danışıqlar və ilk növbədə Aİ vasitəsilə nüvə sazişinin hazırlanması da gündəmdədir. Amma bu cür sövdələşmələrin taleyi Avropanın deyil, Vaşinqton və Təl-Əvivin əlindədir.

Netanyahunun hər hansı bir hərəkətə tam kart-blanş verdiyini anlayan İran açıq şəkildə tələsir. Və bu, təkcə İsrail ordusunun özünün əməliyyatları üçün deyil, həm də ABŞ və NATO-nun dəstəyi üçün kart-blanşdır. Hansı ki, bu, hətta Vaşinqtonun sözlə etiraz etdiyi Qəzza əməliyyatlarında da özünü büruzə verirdi, amma reallıqda İsrailə külli miqdarda vəsait göndərildi.

İranın "danışıqlı razılaşma" axtarışında hələ də anlaşılmaz olan yeganə şey prezidentlərinin may ayında vəfat etməsidir. Lakin vertolyotlar düşürsə, deməli, bu kiməsə lazımdır və bunu da hadisələrin ümumi axını ilə izah etmək lazımdır.

Son xəbərlərə görə, İsrailin hücumundan sonra Livanda bir milyona yaxın insan evlərini tərk edib. Livan İsrailin bombardmanları nəticəsində tarixində ən böyük vətəndaş köçünü yaşayır. Baş nazir Nəcib Mikati ölkənin müvəqqəti hökumətinin iclasından sonra bildirib ki, insanlar yaşayış yerlərini tərk etməyə məcbur olublar.

Livanlılar Suriya sərhədinə Bekaa vadisindən və Livanın şərqindəki digər bölgələrdən gəlirlər.

Yeri gəlmişkən, bu arada Bəşər Əsədin öldürülməsi haqda xəbərlər peyda olub. Yəni İsrail Hərbi Hava Qüvvələrinin Bəşər Əsədin kiçik qardaşı, general və elit 4-cü zirehli diviziyanın rəhbəri olan, İranla yaxın əlaqələri olan Maher Əsədin villasına hava zərbələri endirdiyi bildirilir. O, böyük qardaşından sonra rejimin iyerarxiyasında ikinci komandirdir.

Onu da qeyd etmək yerinə düşər ki, Bəşər Əsəd bu villaya tez-tez baş çəkir.

Baş verənlərin daha bir maraq doğuran tərəfi budur ki, son günlərin hadisələri fonunda İsrailin Azərbaycandakı səfiri Corc Dik "X" platformasında, "AS Holdings" və onun törəmə şirkəti, NATO standartlarına uyğun yüngül silahların istehsalı və inkişafı üzrə ixtisaslaşmış beynəlxalq şirkət olan "Ari Arms"ın Azərbaycan Müdafiə Sənayesi Nazirliyinin tabeliyində olan "Azərsilah"la Strateji Anlaşma Memorandumu imzaladığını açıqlayıb. Həmçinin, İran prezidenti Pezşkian Nyu-yorkda çıxışında maraqlı nüansa vurğu edib.

Baş verənlərin daha bir maraq doğuran tərəfi budur ki, son günlərin hadisələri fonunda İsrailin Azərbaycandakı səfiri Corc Dik "X" platformasında, "AS Holdings" və onun törəmə şirkəti, NATO standartlarına uyğun yüngül silahların istehsalı və inkişafı üzrə ixtisaslaşmış beynəlxalq şirkət olan "Ari Arms"ın Azərbaycan Müdafiə Sənayesi Nazirliyinin tabeliyində olan "Azərsilah"la Strateji Anlaşma Memorandumu imzaladığını açıqlayıb. Həmçinin, İran prezidenti Pezşkian Nyu-yorkda çıxışında maraqlı nüansa vurğu edib. O, "Allah eləməsin, bizdə bir hadisə baş versə, İran dövlət kimi qalmayacaq. Kürdüstan, Azərbaycan, Bəlucistan və Xuzistan öz dövlətlərini yaradacaqlar", deyə xaos qarışıq narahatçılığını ifadə edib. Ardınca isə, Yaxın Şərqdə baş verən çalxalanmalar fonunda Hudson İnstitutunun baş elmi işçisi Luke Coffey öz "X" səhifəsində yazıb: "Azərbaycan hazır olmalıdır". Amma nəyə hazır olmasına eyham vurmayıb.

Sonda isə deyək ki, siyasi fonda baş verirmiş kimi görünən hadisələrin altında iqtisadi maraqlar yatır. Belə ki, İsrailin Livanı neytrallaşdırmaq hərəkatının kökündə əvvəl Qəzzanı neytrallaşdırmaq niyyəti yatır. Daha doğrusu, Türkiyəni oyundan kənar vəziyyətdə qoymaq, dolayısı ilə ABŞ-ın Çinin tranzit dəhlizlərinin qarşısını alternative dəhlizlərlə kəsmək. Məlum olduğu kimi, ABŞ Çinin İpək Yolu layihəsinin qarşısını kəsmək üçün İMEC tranzit layihəsini ortalığa atıb. İsrail bu planın önəmli halqasında yerləşir. Hindistan-Yaxın Şərq-Avropa İqtisadi Dəhlizi və ya IMEC müasir dövrün ədviyyat marşrutu və Çinin Bir Kəmər və Yol Təşəbbüsünə alternativ kimi qiymətləndirilir.

Bu, ABŞ, Avropa İttifaqı və Səudiyyə Ərəbistanı tərəfindən dəstəklənir. Dəhliz BƏƏ, Səudiyyə Ərəbistanı və İordaniyanı İsrailin Aralıq dənizindəki Hayfa limanına birləşdirən dəmir yolu və gəmiçilik şəbəkəsinin yaradılması məqsədi daşıyır. Daha sonra mallar Süveyş kanalından yan keçməklə Avropaya göndərilə bilər. Bu dəhlizə qarşı Ankara Türkiyə, İraq, Qətər və BƏƏ arasında imzalanan "Qalxınma Yolu" layihəsini irəli sürdü. Layihə 1200 kilometrlik bir yol üzərindən sürətli qatar və quru yollarıyla Bəsrə Körfəzindəki Faw limanından Divaniyə, Nəcəf, Kərbəla, Bağdad, Mosul kimi İraqın mühüm şəhərlərindən Türkiyəyə, buradan da Avropaya çatdırılmasını planlayır. Çinin İpək Yolu layihəsinin cənub istiqaməti Şian şəhərindən başlayaraq Urumçi-Şərqi Türküstandan keçərək Pakistanda Karaçi və Qvadar limanlarından Oman dənizinə uzanır. Oman körfəzindən BƏƏ və Qətər ətrafından keçərək Fars körfəzi ilə Bəsrə körfəzinə gələn, oradan da İraqdan Türkiyəyə və ta Londona qədər Avropaya çatan Qalxınma Yolu xüsusən də Çin üçün asanlıq deməkdir. Qətərin maye qazının Fao limanı vasitəsilə Türkiyəyə, oradan da Avropaya nəqli daha az xərc deməkdir. Bu kontekstdə nəzərə alınmalıdır ki, layihə Körfəz bölgəsindəki limanlardan yan keçməyəcək.

Fao Limanı Layihəsi Çin üçün yeni seçimdir. Çünki Çin İpək Yolu Layihəsini İran marşrutu ilə işlətməyə çalışır. Lakin Qərb dünyası ilə İran arasındakı gərginlik və inamsızlıq bu marşrutu risk altına qoyur. Daha doğrusu, İranın ikili oyunu Çini ofsayt duruma salır. Bağdad hökumətinin də Türkiyəni seçməsi Çini daha təhlükəsiz və daha real seçim kimi bu nöqtəyə gətirə bilər. Çünki ABŞ-ın Hindistandan başlayaraq Yunanıstana, oradan da Avropaya uzanan İMEC layihəsində əsas nöqtələr BƏƏ-nin Jabel Ali, Al Ghuvaifat, Səudiyyənin Haradh, Riyadh, Al Haditha, İsrailin Hayfa, Yunanıstanın Piraeus nöqtələridir. İsrailin isə Hayfa limanını Qəzza tərəfini fələstinlilərdən təmizləməsi məntiqli idi. Livanı iflic hala salması, ardınca Suriyaya eyni aqibəti yaşatmasının məqsədi Türkiyənin yolunu kəsməkdir.

Beləliklə, məlum olur ki, İsrailin, arxa planda isə ABŞ-ın Livanı viranəyə çevirməsi siyasi yox, iqtisadi əsaslıdır. ABŞ Çinin qarşısını kəsməyə çalışır, yəni İsrail Livanı işğal edərək və işğalı da Suriyaya qədər uzadaraq Türkiyənin qarşısını kəsməyə çalışır. Təsadüfi deyil ki, İsrailin Livana hücumu fonunda Yaponiya ABŞ-ın nüvə silahlarının Asiyada yerləşdirilməsi məsələsini müzakirə etməyə çağırıb. Belə ki, Yaponiyanın yeni təyin olunmuş baş naziri Şiqeru İşiba regionda ABŞ nüvə silahlarının yerləşdirilməsi perspektivini müzakirə etməyi təklif edib və ölkədə özünün nüvə arsenalının yaradılmasını müdafiə edib.



**Ülviyyə ŞÜKÜROVA**

# Azərbaycanda şok olay

## Pensiyasını kəsdilər, dedilər ki, sən 31 il əvvəl ölmüsən...

**Bakı şəhəri, Binəqədi rayon sakini, Mustafayev Əli Mustafa oğlu tərəfindən Hurriyyət.az saytının redaksiyasına şikayət məktubu daxil olub. Şikayətçi iddia edir ki, nazirlik onun pensiyasını qanunsuz olaraq kəsib, səbəb olaraq isə "1993-cü ildə rəhmətə getdiyi" göstərilib. Şikayətçinin müraciətini olduğu kimi dərc edirik:**

**"Hörmətli Sahil Babayev!**

Əmək və Əhlinin Sosial Müdafiə Nazirliyində "ölü kimi" qeydə alınan şəxs - mən Mustafayev Əli Mustafa oğlu - 01.07.1947-ci ildə Saatlı rayonunun Hacıqasımlı kəndində anadan olmuşam. Saatlı rayonunda Hacıqasımlı kəndində kolxozda işləyib, pensiyaya çıxmışam. İndiyə kimi də normal qayda pensiyamı alırdım. Bu ay hərkəsin pensiyası gəldi, amma mənim pensiyam gəlmədi. Qaynar xəttə zəng etdim. Ordan bildirdilər ki, dediyiniz şəxs 01.03.1993-cü ilsə vəfat edib. Sistemdə belə yazılıb.




Başa düşə bilmirəm, 2012-ci ildən pensiyaya çıxmışam. Ölü necə pensiyaya çıxar? 2012-ci ildən də pensiyamı indiyə kimi normal qaydada almışam. Deyirəm ki, mən dəfələrlə xaricə getmişəm, Rusiya, Belarusiya, İran və fərqli ölkələrə. Ölü necə gedər? İndi mənim pensiyamı kəsiblər ki, sən ölmüsən. Mən onlara deyirəm ki, yaxşı, sizinlə razıyam, bəs mənim məzarım hardadır? Harda ölmüşəm mən? Necə ölmüşəm? 1993-cü ildə vəfat etmişəmsə niyə mənə xəbər vermədiniz. Sağ ola-ola deyirlər ki, siz ölmüsünüz".

Məsələ ilə bağlı Dövlət Sosial Müdafiə Fondu ilə əlaqə saxladıq. Fonddan bildiril di ki, məsələni aydınlaşdırıb, məlumat verəcəyik.

**Aynurə İSMAYIL**

# Ağcabədi sakini əlillik pensiyasını ala bilmir

**Ağcabədi rayon Kəbirli kənd sakini Mirzəliyev İsa Kamal oğlu tərəfindən Hurriyyet.az saytının redaksiyasına şikayət məktubu daxil olub. O, əlillik pensiyası ala bilməməsindən şikayətçidir:**

"Mən, Mirzəliyev İsa Kamal oğlu, bildirirəm ki, 1992-ci ildə müharibədə olmuşam. 4 il aktiv döyüşlərdə xidmət etmişəm. Müharibədə yaralanmışam, avtomatla ayağımdan vurublar. Güllə sinir sistemimi zədələyib.

2016-cı ildən başlayaraq pensiya alırdım. Əvvəl ayaq və əl barmaqlarımın ucları gizildəməyə, sonra isə bütün bədənim əsməyə başladı. Əvvəl əlillik üçün 3-cü qrup pensiya almışam, 2018-ci ildə 2-ci qrup əlillik pensiyası, 2023-cü il dekabr ayında isə pensiyamı ümumiyyətlə kəsdilər.

Əvvəl dərmanlarım Yaşad Fondu tərəfindən verilirdi. Pensiyam kəsiləndən sonra dərmanlarımı da Yaşad Fondu vermədi. Xahiş edirəm,müharibə ilə əlaqədar pensiyamın düzəlməyində mənə kömək edəsiniz."



Məsələ ilə bağlı Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə əlaqə saxladıq. Qurumdan bizə bildirildi ki, Ağcabədi rayon sakini, 1973-cü il təvəllüdlü Mirzəliyev İsa Kamal oğlu əlillik vəziyyətinin qiymətləndirilməsi ilə bağlı tibb müəssisəsi tərəfindən rəsmiləşdirilən forma-88 göndərişi əsasında 01.04.2024-cü il tarixdə Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyində əyani müayinə edilib.

Agentliyin həkim-ekspertlərinin əyani müayinəsi zamanı müəyyən edilib ki, vətəndaşın hazırki diaqnozu (Parkinson xəstəliyi) ümumi səbəbdən əlillik təyinatına əsas verir.

Bu səbəbdən də İsa Mirzəliyevə Nazirlər Kabinetinin 13 may 2022-ci il tarixli 187 nömrəli qərarı ilə təsdiq edilmiş "Əlilliyin müəyyən olunması meyarları"na uyğun olaraq ümumi səbəbdən, orqanizm funksiyalarının 80% pozulmasına görə müddətsiz əlillik təyinatı aparılıb.

**Aynurə İSMAYIL**

***Redaksiyadan: Qarşı tərəfin mövqeyini dərc etməyə hazırıq***

# Qubadlı sakini müavinətinin kəsilməsindən narazıdır



**Qubadlı rayon sakini Həsənalıyev Sucəddin Bəhram oğlu tərəfindən Hurriyyet.az saytının redaksiyasına şikayət məktubu daxil olub. Şikayətçi müavinətinin kəsilməsindən narazıdır:**

"Mən, Həsənalıyev Sucəddin Bəhram oğlu, bildirirəm ki, cənab Prezidentimizin sərancaməna əsasən, oğlum Tacəddinə verilən məcburi köçkünlər üçün nəzərdə tutulan 60 manat aylıq müavinət kəsilib.

Oğlum 2022-ci ildə hərbi xidmətə yollandı. Həmin tarixdən ona verilən müavinət dayandırıldı.

2024-cü il yanvar ayının 25-də hərbi xidməti başa vurub, evə qayıtdı. Lakin dövlətimiz tərəfindən verilən müavinətlə təmin olunmadı".

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən Hurriyyet.az-ın sorğusuna cavab olaraq bildirilib ki, məcburi köçkünlərə vahid aylıq müavinət verilməsi Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 24 yanvar tarixli 11 nömrəli qərarı ilə təsdiq edilmiş "Məcburi köçkünlər və onlara bərabər tutulan şəxslər üçün yemək xərci müavinəti, habelə kommunal və digər xidmətlər üzrə dövlət büdcəsindən ödənişlər əvəzinə vahid aylıq müavinətin ödənilməsi Qaydası"na əsasən tənzimlənir. Qaydanın 2.2-ci bəndinə əsasən, məcburi köçkün düşdükdən sonra ərazisi işğal olunmuş rayondakı (şəhərdəki) yaşayış yeri üzrə qeydiyyatdan çıxaraq ərazisi işğal olunmamış digər rayon (şəhər) üzrə yaşayış yerinə qeydiyyata düşmüş məcburi köçkünlərə və onların ailə üzvlərinə vahid aylıq müavinətin verilməsi şamil edilmir.

Həsənalıyev Tacəddin Sücəddin oğlu da Cəlilabad rayonuna daimi qeydiyyata düşdüyü üçün (sonradan dəyişib) ona vahid aylıq müavinətin verilməsi şamil edilmir".

**Aynurə İSMAYIL**




# Ucar sakini "Aztelekom" MMC-dən şikayət edir, qarşı tərəf isə...

**Ucar rayon sakini Həsənov Daşqın Mahir oğlu tərəfindən Hurriyyet. az saytının redaksiyasına şikayət məktubu daxil olub. O, "Aztelekom" MMC-dən şikayət edir:**

"Mən, Həsənov Daşqın Mahir oğlu, yazıb sizdən xahiş edirəm ki, problemimi işıqlandırasınız.

Məlumat üçün bildirim ki, evimdə bir ay yaşayış olmadı. Qayıdan zaman internet xəttini açdırmaq istədim. Mənə bildirdilər ki, 140 manat cərimə olunmusunuz. 1 ay internet istifadə etmədiyim üçün niyə cərimə olunmalıyam?"

Məsələ ilə bağlı "Aztelekom" MMC-yə sorğu ünvanladıq. Sorğumuza cavab olaraq bildirildi ki, "Aztelekom" Məhdud Məsuliyyətli Cəmiyyəti ilə abunəçilər arasında münasibətlər müvafiq qaydada, tərəflər arasında imzalanmış telekommunikasiya xidmətlərinin göstərilməsi barədə müqaviləyə və qüvvədə olan qanunvericiliyin tələblərinə əsasən tənzimlənir:

"Belə ki, müştərilər müqavilə ilə müəyyən edilmiş şərtlərə əsasən, 12 ay ardıcıl olaraq gecikməyə yol vermədən xidmətdən istifadə ilə bağlı ödənişləri həyata keçirdiyi halda qoşulma haqqı və ONT modemin ödənişi tələb olunmadan modem abunəçinin istifadəsinə verilir. Abunəçi tərəfindən müqavilə ilə müəyyən edilmiş ödənişin icrası gecikdirilərsə, o halda modemin dəyəri və qoşulma haqqı operatora tam şəkildə ödənilməlidir.

Sorğuda qeyd edilən halda da internet xidmətinin göstərilməsi ilə bağlı 28.11.2023-cü ildə yuxarıda qeyd edilmiş şərtlərlə müqavilə bağlanılıb. Abunəçiyə ödənilməsi bildirilmiş məbləğ heç bir halda hər hansı cərimə və ya əlavə ödəniş deyil. Sözügedən məbləğ internet xidməti qoşularkən abunəçiyə güzəşt edilmiş, müqavilə şərtlərinə əməl edilməməklə xidmətdən istifadə ilə bağlı ödəniş öhdəliyi vaxtında icra edilməməsi səbəbi ilə qoşulma haqqı və modemin dəyərinin ödənilməsi öhdəliyidir.

Abunəçilər ONT modemin qiyməti, qoşulma şərtləri və tariflərlə bağlı ətraflı məlumatla aztelekom-.az saytında tanış ola bilərlər".

**Aynurə İSMAYIL**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## Gənc nəslin milli mənlik şüurunun inkişaf etdirilməsi və vətənpərvərlik hisslərinin tərbiyəsi

# Məktəbdə psixoloqlar niyə var?

## 1 ayda cəmi 3 dəfə məktəbə gələnlər, sadəcə yoxlama zamanı gəlib uşaqları "öyrədən" psixoloqlar da var



**Təhsil həyatına ilk addımları məktəbdə atırıq, yazıb-oxumağı məktəbdə öyrənirik. Kitablarla dostlaşıb, onlardan faydalı məlumatlar öyrənirik. Bilik tükənməz bir xəzinədir. Məktəb isə bizlərə bu xəzinəni bəxş edən elm-təhsil ocağıdır. Dahi bir kəlamda necə də gözəl deyilib: "Müəllim bağbana, məktəbsə bağa bənzər. Ən gözəl çiçəklər və meyvələr, onun zəhmətinin barıdır".**

Əvvəlki müəllimlər indiki müəllimlərin arasında çox fərq var. Əvvəllər, yəni təxmini 2005-ci illərədək qadın müəllimlər orta məktəbdə şagirdlərə həqiqətən də ana olurdular. Uşağın anası bilmədiyi problemini müəllim bilirdi və həll edirdi. Məhz elə bu səbəbdən də ölkədə qanunsuzluq, narkomaniya, cinayət faktları az idi. Çünki müəllimlər bizə təkcə təhsil yox, həmçinin həyatı öyrədirdilər. Onlar bu peşəni bizlərə o qədər sevdirirdilər ki, müəllimliyin dünyada ən gözəl sənət olduğunu düşünmədən deyə bilərdik.

Ümumiyyətlə, məktəblər təkcə övladlarımıza təhsil vermir, həm də onların təlim və tərbiyəsi ilə məşğul olur. Əvvəllər 45 dəqiqə dərs vaxtının 10-15 dəqiqəsini təlim-tərbiyəyə sərf edən müəllimlərimiz vardı. Amma müasir təhsil ocaqları təlim-tərbiyə məsələsini nisbətən arxa plana atıb. Görünür, elə bu səbəbdən də bəzi gənclər pis vərdişlərə, kriminala meyl edirlər.

Belə bir deyim var ki, gələcək gənclərin, gənclər isə müəllimlərin əsəridir. Ən yaxşı mühəndislər, həkimlər, memarlar məhz müəllimlərin əsərləridir.

Bəs məktəbdəki psixoloqların işi nədir?

Dəfələrlə bu mövzuda yazılar vermişik, təəssüf ki, indiyədək bu sahədə heç bir tədbir görülməyib. Bəllidir ki, məktəbdəki psixoloqların əksəriyyəti ya direktorun, ya da müavinin qohumu, tanışıdır. 1 ayda 3 dəfə məktəbə gələnlər, sadəcə yoxlama zamanı gəlib uşaqları "öyrədən" psixoloqlar da var. Məsələn, Gəncə şəhəri, Nizami Aydın adına 18 nömrəli məktəbdə 11-ci siniflərə yoxlama gələn zaman uşaqların tanımadıqları, adını bilmədikləri, özünü psixoloq kimi təqdim edən bir müəllim gəlib onlarla tanış olub, daha sonra bildirmişdi ki, soruşan olsa, mən ayda 1 dəfə sizlərlə söhbət edirəm. Görün, indi məktəblər nə gündədir ki, psixoloqun özü uşaqları yalan danışmağa sövq edir. Əlbəttə, bu kimi hallardan çox danışa bilərik.

Xoşagəlməz bir fakt da odur ki, son vaxtlar intihar edənlərin əksəriyyəti məhz orta məktəb şagirdləridir. Əslində, bunun psixoloqun fəaliyyəti ilə birbaşa yox, dolayısı ilə əlaqəsi var. Məktəb rəhbəri və müəllimlər öz öhdəliklərini tam yerinə yetirə bilsələr, bu kimi hallar azalar.

Daha bir fakta diqqət edək. Məktəbdəki psixoloqların çoxu formal fəaliyyət göstərdikləri, sadəcə maaş üçün işlədikləri üçün, şagirdlər arasında narkotik istifadə edənlərin sayı da çoxalıb. Üstəlik, erkən nigahlar, ən əsası da savadsızlıq həddindən çox artıb. Yəqin ki, psixoloqlar normal fəaliyyət göstərsələr, məktəblilər arasında pis vərdişlərə meyl edənlərin sayı da azalar.

### "Bu sistemin düzgün qurulmamasında psixoloqları günahlandıra bilmərik"

**Məsələ ilə bağlı psixoloq Gülnar Orucova ilə həmsöhbət olduq:**

"Ümumilikdə onu deyim ki, məktəblərdə siniflərin sayı çoxdur. İbtidai siniflər və yuxarı siniflər var. Bu siniflərə görə 1 psixoloqun olması çox azdır. Bir məktəbdə minimum 3 psixoloq olmalıdır.

Son zamanlarda inklüziv təhsilin təşviqi ilə bağlı qərarlar çıxıb. Hər sinifdə hansısa sindromdan əziyyət çəkən uşağı cəmiyyətə adaptasiya etmək məqsədi ilə 2 uşaq yerləşdirirlər. Bu uşaqlar dərsdə hər hansı bir davranış pozuntuları ortaya çıxara bilirlər və bu davranış pozuntularına görə də, sinifdə hər hansı problemlər - istər valideynlərlə, istər də müəllimlərlə - ortaya çıxa bilər.

Əlbəttə, bu gün məktəb psixoloqlarının işi heç də bəyənilən deyil. Amma bu sistemin düzgün qurulmamasında biz məktəb psixoloqlarını günahlandıra bilmərik. Bunun düzgün qurulmamasında cavabdeh sırf aidiyyəti qurumdur. Bəziləri universiteti bitirdikdən sonra gəlib məktəblərdə psixoloq işləyirlər. Müəllimlər və psixoloqlara aid olan imtahandan keçdikdən sonra iş fəaliyyətinə başlayırlar. Mənim özümə də maraqlı olan bir sual var: heç bir terapiyanı bilmədən, yalnız nəzəriyyə ilə işə necə başlayırlar?

Misal üçün, mən universiteti bitirəndən sonra öz hesabımı bir neçə proqram və kurslar keçmişəm. Bu proqramların sayəsində də işimi qurmuşam.

Bu proqramların bəziləri 4 moduldan ibarət olur. Hər modulu 400-600 AZN olan proqramlar var. Məktəb psixoloqunun əmək haqqı isə 480 manatdır. Bu zaman belə bir acı gerçək də ortaya çıxır ki, məktəb psixoloqu bu ödənişi necə etsin? Beləliklə də heç bir proqram öyrənə bilmirlər. Bu halda da heç bir proqramla iş apara bilmir, ancaq öz şəxsi təcrübələrindən istifadə edirlər. Şəxsi təcrübə də o qədər böyük nəticə verə bilməz".

Gülnar Orucova hesab edir ki, məktəb psixoloqları işlərini düzgün bilsə, proqramlardan dövlət hesabına faydalanmaq imkanı olsa, müsbət nəticə əldə oluna bilər: "Azərbaycanda və yaxud da xaricdə dövlət hesabına kurslar təşkil olunmalıdır. Bu gün biz özəl sektor olaraq qazanırıq və bunun hesabına inkişaf proqramlarına, eləcə də xəstələrimiz üzərində işləyə biləcəyimiz hansı proqramlar lazımdırsa, onu əldə edirik. Hətta onlayn olsa belə, bu proqramlara qatılmaq, öyrənmək mümkündür.

Məktəb psixoloqları işlərini düzgün qursa, uşaqlar arasında bu qədər mübahisə olmaz. Son dönəmdə belə hallara rast gəlirik ki, uşaqlar bir-birilərini alçaldırlar, döyürlər və söyürlər. Bununla ürəyi soyumayıb, video çəkənlər də var. Məktəb psixoloqları bu kimi problemləri aradan götürə bilmir. Onlar ancaq keçmişdə qalan bəzi testləri edirlər. Bunlar da çox keçmişdən qaldıqları üçün yararsız hesab olunur.

Bu gün xüsusilə 9 -11 ci siniflərdə "stress test" aparılmalıdır. İmtahan həyacanını ortadan qaldırmaq üçün bu test vacibdir. Hansı ki, bu problemlə bağlı valideynlər bizə tez-tez müraciət edirlər. Misal üçün, özəl sektorlar, yeni litseylər öz müəsisələrinə bizi dəvət edirlər. Narkomaniya, alkoqolizm və s. mövzularda bir çox litseylərdə bizim seminarlarımız olub.

Bu gün psixoloqlar sadəcə məktəbdə davamiyyəti yoxlayır, uşaqları tədbir zamanı harasa aparır və oradan gətirir. Daha sonra boş dərsləri əvəz edirlər və s. Görün, nə acınacaqlı məqamdır. Əslində isə psixoloqun işi bu olmalı deyil. Bunun günahkarı da həmin məktəblərin direktorudur.

Ümumiyyətlə, bu gün məktəbdə çalışan psixoloqların özgüvəni qırılır. Direktorlar hər dəqiqə ona edə biləcəyi və bilməyəci tapşırıqlar verir. Daha sonra da xırda bir səhvdə onu danlamağa başlayır. Psixoloq psixoloji dəstək verməlidir, "alapar, gəl-götür" işini görməməlidir. Bu zaman isə psixoloqların özləri gərgin vəziyyətə düşürlər. Bütün bunlar düzgün deyil. Litseylərdə və özəl sektorlarda psixoloqlar həqiqətən də öz işlərini layiqincə görürlər, amma məktəblər haqqında bunu deyə bilmərik.

Psixoloq öz işi ilə məşğul olmaldır. Təhsildə psixoloqlara önəm verilməlidir, onlara saat ayrılmalıdır. Məktəb direktorları hörmətlə yanaşmalıdır. Əgər bu gün məktəb direktoru psixoloqu hər kəsin qabağında alçaldırsa, tənqid edirsə, bu zaman psixoloqun məktəbdə uşaqların yanında heç bir hörməti ola bilməz".



Psixoloq Gülnar Orucova: "Məktəb psixoloqları işlərini düzgün qursa, uşaqlar arasında bu qədər mübahisə olmaz"

**Jalə FAMİLQIZI**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyəsi əsasında çap olunur

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi**

# Ölkədə qiymətlər niyə sürətlə artır?

**“Son illərdə ərzaq məhsullarının qiymətlərinin davamlı bahalaşmasını müşahidə edirik. Bunun bir neçə səbəbi var. Bəzən deyirlər ki, dünyadakı vəziyyətlə bağlıdır. Biz görürük ki, dünyada bəzi məhsulların qiyməti ucuzlaşır, amma bizdə ucuzlaşmır. Gah da deyirlər, yerli istehsalın azalması ilə bağlıdır. Fərqli səbəblər var və hamısının burada rolu var”.**

Bu fikirləri sosioloq Elçin Bayramlı “Hürriyyət”ə açıqlamasında bildirib. Onun fikrincə, ümumiyyətlə, dünyada gedən proseslər, iqlim dəyişikliyi, quraqlıq və s. ərzaq istehsalını azaldır: “Bütün ölkələrdə bu problemlər müşahidə olunur. Bizdə əlavə olaraq yerli istehsalda ciddi problemlər var. Yəni hər hansı ölkədə quraqlıq müşahidə olunur, başqa hansısa müxtəlif səbəblərdən probemlər yaranır, bizdə bu subyektiv səbəblə - korrupssiya amili, monopliya məsələləri, sahibkarlara, fermerlərə müxtəlif maneələr və s. ilə bağlıdır”.

Elçin Bayramlı deyir ki, Azərbaycan 50 faizdən artıq idxaldan asılıdır: “Deməli, Azərbaycanda kənd təsərrüfatı ilə əhainin 40 faizinə qədəri məşğul olmalıdır. Amma bu, ölkənin tələbatının yarısını belə, ödəmir. Biz ümumilikdə 50 faizdən artıq idxaldan asılıyıq. Bəzi ərzaq məhsullarında isə bu rəqəm 70-80 faizə çatır. Hökumətin qarşısında məqsəd qoyulmuşdu ki, ərzaq təhlükəsizliyini təmin edək, amma edə bilmirik, əksinə hər il aqrar sektorda tənəzzül görürük. Statistikalar da bunu göstərir. Çox sahələrdə idxal artıb. İldən-ilə idxal artır, istehsal azalır. Bu, heyvandarlıq, bitkiçilik və digər sahələrə də aiddir. Nəticədə də, təbii ki, idxaldan asılılığımız bahalaşmaya gətirib çıxarır.

İkinci səbəb, sahibkarlara, fermerlərə, əkinçilərə yaradılan maneələrdir. Məsələn, suvarma işi yaxşı təşkil olunmayıb deyə su ilə bağlı problemlər var. Bu halda da ciddi problemlər yaranır. Bundan əlavə, fermerlərin bazarlama məsələsi, kəndlilərin öz məhsullarını rahat şəkildə bazara çıxarması təmin olunmadığına görə, yerlərdə 20-30 qəpiyə alınan məhsul paytaxtada, iri şəhərlərdə 1-2 manata satılır. Yəni məhsulu əkib-becərən yox, dəllallar, bazarları zəbt etmiş alverçilər qazanır. Bu halda sahibkar da, alıcı da uduzur. Tutaq ki, kəndli məhsulunu 20 qəpiyə satır, mən burda 1 manata alıram, ortadakı 80 qəpiyi dəllallar qazanır. Belə bir sistem qurulub. Bu səbəbdən də, milyardlarla pul ayrılsa da, bizdə kənd təsərrüftaı sahəsində heç bir irəliləyiş yoxdur”.

Sosioloq bildirir ki, Azərbaycanda neftdən sonra ən gəlirli sahə aqrar sektordur: “Digər sahələrə girmək imkanımız yoxdur. Nə ağır sənayedə dünya bazarına çıxa bilmərik, nə turizmdə rəqabət imkanımız, nə də informasiya texnologiyası sahəsində potensialımız var. Bizim əsasən aqrar sənaye sistemində potensialımız böyükdür. Aqrar sahə ən yüngül və yeyinti saneyəsi deməkdir. Təəssüf ki, biz bunu da qura bilməmişik. Xammal ixracatçısına çevrilirik. Məsələn, pambığı emal edib, ammal kimi ucuz qiymətə xaricə satırıq, oradan da dayanmadan geyim məhsulları idxal edirik. Burda milyardlarla pul itiririk. Bu, digər sahələrə də aiddir.

Deməli, ümumilikdə ərzağın bahalaşması daha çox iki səbəblə - xarici və daxili amillərlə bağlıdır. Burada isə daxili amilin payı daha çoxdur. Məsələn, biz görürük ki, xaricdə taxılın qiyməti ucuzlaşdı, bizdə isə heç bir fərq etmir. Nəticədə bu, yerli istehsalın azalmasına, qiymət artımına səbəb olur. Yəni məhsulun maya dəyəri artanda, təbii ki, bazarda bahalaşma yaranacaq”.



Ekspert deyir ki, məhsulun maya dəyərinin artmasına da bir neçə amil təsir edir: “Son illərdə suyun, bitkiçilik dərmanlarının, yanacağın, dizelin, qiyməti artır, müxtəlif sahələrdə bahalaşma baş verir. Təbii ki, bu da bütün istehsalçılara zərbə vurur. Həm də məhsulların mayə dəyərini artırır.

Əlavə olaraq, bazarda tələbtəklif məsələsi də var. Təklif azalanda tələb çoxalır. Tələb təmin olunmursa, qiymətlər bahalaşır. Ona görə də yeganə şərt məhsul bolluğunun təmin olunmasıdır . Məhsul bolluğununu da idxalla təmin etmək doğru deyil. Birincisi, ölkə bazarına mənşəyi məlum olmayan ucuz məhsullar gəlir. İkincisi, ölkədən küll miqdarda valyuta çıxır. Üçüncüsü, bizim yerli istehsalçı sıradan çıxır, bazarlar xarici məhsulla dolur. Bunların hamısı ölkə iqtisadiyyatına zərər vurur, insanları işsiz, torpaqlarımızı istifadəsiz qoyur”.

Elçin Bayramlı vurğulayır ki, ölkəmizdə aqrar siğorta sistemi də bizlə işləmədiyinə görə insanlar bir çox hallarda zərərə düşür: “İnsanlar əziyyət çəkib, hektarlarla yerdə əkin-biçin edir. Son nəticədə, əldə etdiyi gəlir xərcləri ödəmir. Və gələn il əkmək istəmirlər. Artıq bu sahə sıradan çıxdı. Nəticədə həmin məhsullar xaricdən gətirilir. Halbuki, bizim ele potensialımız var ki, Azərbaycan özəhalisini tam şəkildə bütün ərzaq məhsulları ilə təmin edə bilər. Əlavə olaraq da böyük ixrac imkanlarımız var. Sadəcə, Kənd Təsərrufatı Nazirliyi aqrar sahədə düzgün stimullaşdırma aparmır, düzgün proqramlar yerinə yetirmir. Baxmayaraq ki, milyardlarla dövlət vəsaiti ayrılır, bu pullar batır. Deməli, burda problem var. Buna görə, sahibkarlara maneələr, korrupsiya aradan götürülməlidir”.

Sosioloq hesab edir ki, ölkədə bolluq və bərəkət yaratmağın çox sadə üsulu var: “Bunun üçün bütün ölkə boyu daimi yarmarkalar təşkil olunmalıdır. Bakı şəhərində minumum 5 və ya 10, Gəncə, Sumqayıt şəhərlərində 2 yerdə, digər şəhərlərdə 1 yerdə, yəni 365 gün daimi yarmarkalar olmalıdır. Bu yarmarkalara ancaq öz məhsulunu istehsal edən kəndlilər, sahibkarlar, fermerlər buraxılmalıdır. Bu halda onlar öz məhsulunu 20 qəpiyə deyil, 60 qəpiyə satacaq, gəlir əldə edəcək. Biz də alıcı olaraq 1 manata yox, 60 qəpiyə almış olacağıq. Deməli, biz burda 2 dəfə də irəli düşürük, dəllallar isə ortadan çıxır. Nəticədə, öz məhsulundan yaxşı gəlir əldə edən sahibkarlar, fermerlər, əkinçilər gələn il daha çox məhsul istehsal etməyə çalışacaq, öz imkanlarını genişləndirəcək. Texnika alacaq, daha yaxşı işçilər tutacaq, çalışacaq ki, çox məhsul istehsal etsin.

Üstəlik, məhsul hər hansı təbii fəlakət nəticəsində məhv olarsa, dövlət aqrar siğorta ilə zərəri kompensasiya etməlidir. Bizdə bu şeylər olmadığından, getdikcə aqrar sahədə tənəzzül baş verir. Aqrar sektorda məhsul azalması sənayeyə də zərər vurur. Çünki yeyinti sənayesi, yüngül sənaye artıq təmin olunmur.

Digər tərəfdən, biz niyə duru yağları Rusiyadan, Ukraynadan almalıyıq?! Axı, belə olmur. Bu zavodlar öz yerli südümüzdən istifadə etməlidirlər. Eləcə də davamlı olaraq ətin qiyməti qalxır. Niyə? Çünki heyvandarlıqda da maya dəyəri artıb, örüşlər azalıb. Bu kimi məsələlər ətin qiymətinin bahalaşmasına gətirib çıxarır. Nəticədə əhalinin sosial vəziyyəti ağırlaşır və ərzağın bahalaşması dayanmır”.

Ekspert qeyd edir ki, bahalaşmanın qarşısını almaq üçün ciddi dövlət qroqramı qəbul olunmalıdır: “Ölkənin yarısı Bakı və Abşeron zonasına dolub. Çünki regionlarımızın heç birində iş imkanları yoxdur. Dövlət elə siyasət yürütməlidir ki, şəhərlərə doluşmuş əhali geri qayıtsın, orada iş yerləri ilə təmin olunsun, təsərrüfatlar yaratsın, heyvandarlıqla məşğul olsun, əkin-biçin etsinlər. Regionlarda kiçik istehsal sexləri təşkil olunmalıdır. Biz niyə xarici ölkədən tomat idxal etməliyik?

Bundan əlavə, insanlaara güzəştli şərtlərlə kredit verilməlidir ki, gedib özünə iş yaratsın. Nəticədə, əhali bir yerə doluşmaz, Bakının da yükü azalar. Regionlarda da iqtisadi aktivlik olar. Məşğulluq məsələsi aradan qalxar. Xaricə çıxan valyutamız azalar. Dövlətin sosial yükü də azalar. Bu halda ünvanlı sosial yardım verməyə də ehtiyac qalmaz, insanlar özləri qazanacaq”.



Sosioloq Elçin Bayramlı: “Bunun obyektiv və sübyektiv səbəbləri var...”

**Aynurə İSMAYIL**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyəsi əsasında çap olunur

# Afət Qazıyeva terrorçu Vardanyana pulsuz vəkillik edir, qaziyə yox?



## VK-nın sədri, MHŞ üzvü Anar Bağırovdur, yoxsa Əlirza Həbilov?

**Media 10-a yaxın vəkilin Vəkillər Kollegiyasının (VK) sıralarından çıxarılacağını bildirib. Hələlik adlar çəkilmir, görəsən, VK rəhbərliyindəki görəvlərindən sui-istifadə edənlər barəsində hansısa tədbir görüləcəkmi? 7 ildir intizam komissiyasının üzvü, DİN-in vəkili və nümayəndəsi kimi saxta statusla hüquqverici sənəd olmadan məhkəmə işlərinə çıxıb, 1-ci dərəcəli Qarabağ qazisinin hüququna qeyri-prosessual qadağa qoyan, saxta qərarlar tərtib edən, etdirən Əlirza Həbilovun vəkil adından şəxsi mənafeyi adına yararlanmasına, DİN-dən "vəkil haqqı" - əməkhaqqı almasına qiymət verən olacaqmı? Sui-istifadə halları bir daha diqqətə çatdırılır:**

**1.** 2017-ci ildə 1 saylı Bakı İnzibati- İqtisadi Məhkəməsində (hakim Elçin Məmmədov) DSMF-ə qarşı işdə Əlirza Həbilov DİN-i 3-cü şəxs etdirib və onun vəkili və nümayəndəsi kimi hüquqverici sənəd təqdim etmədən iddiaçı Qarabağ əlilinin əleyhinə çıxış edib. Əlilin etirazına cavab olaraq hakimi onun barəsində xüsusi qərardad çıxarmağa , akt tərtib etməyə səsləyib, amma hakim bu təxribata getməyib.

**2.** 2018-ci ildə Şəki İnzibati- İqtisadi Məhkəməsində (hakim Kənan Vəliyev) DIN-in adından bəyanatla çıxış edib ki, Ali Məhkəmədə də olsa 1-ci dərəcəli Qarabağ qazisinin hüquqlarının təminatına imkan verilməyəcək. DİN-in adından verilən bu bəyanata hələ də nə DİN, nə VK rəhbərliyi, nə prokurorluq, nə Ədliyyə Nazirliyi, nə də məhkəmənin özü qiymət verib. Hamısı qanunsuz vəkilin qanunsuz bəyanatının DİN-i müdafiə (?) məqsədilə edildiyini vurğulayıb.

**3.** 2019-cu ildə Şəki İnzibati- İqtisadi Məhkəməsində ( hakim İlqar Cabbarov) 15 fevralda qərar qəbul edilmədiyi , iclasın növbəti tarixə təyin edildiyi halda (bunu elektron məhkəmə sistemi sübut edir) , iddianın mümkün sayılmaması haqqında 15.02.2019 tarixli qərardad tərtib etdirib.

Bu 15.02.2019 tarixli qərardadı 5 ildən çoxdur Azərbaycan Respublikasının sistemində preyudisial Konstitusiya aktı kimi tətbiq etdirən Əlirza Həbilov Qarabağ əlilinə ayrılan vəkillərin də şikayətləri yazmasına vəzifəsindən yararlanaraq qadağa qoyub. Şəki Apellyasiya Məhkəməsinin saxta qərardadını qüvvədə saxlayan qərardadından kassasiya şikayəti verməyə İsmayıllı (?- bəyəm Ali Məhkəmə İsmayıllıya köçüb?- M. B.) hüquq məsləhətxanasından ayrılan Nəvahid adlı vəkilə şikayəti yazmağı qadağan edən VK-nın vəzifəli şəxsi özü hüquqverici sənəd olmadan Ali Məhkəmədə (hakim Kəmaləddin Bədəlov) DIN-in vəkili və nümayəndəsi kimi iştirak edib. Və DİN-in adından verdiyi bəyanatı qəbul etdirib. Ali Məhkəmə 12.02.2020 tarixli qərardadla kassasiya şikayətini mümkünsüz saymayıb ki, şikayət gec yazılıb. Əlirza Həbilovun qabaqlayıcı tədbiri-göstərişi ilə vəkil Nəvahid Abbasov bu iclasda da iştirak etməyib.

Onu da vurğulayaq ki, bu "ali qərardad" iddiaçı Qarabağ əlilinə 4 il yarımlıq şikayətlərdən sonra verilib və anında Konstitusiya Məhkəməsinə ( KM) şikayət verilib. Di gəl, icraata qəbul ediləcəyinə ümid yoxdur. Nədən KM özü də 15.05.2020 -ci il tarixli qərarında Əlirza Həbilovu DİN-in vəkili statusunda göstərib.

12.12.2022-ci il tarixli Bakı İnzibati Məhkəməsinin ( hakim Orxan Həsənov) iclasına isə Əlirza Həbilov 3 ilin vəkili Orxan Babayevi DİN-in vəkili və nümayəndəsi kimi göndərib. Əlində də 15.02.2019-cu il tarixli iddianın mümkün sayılmaması haqqında qərardad. Bakı Apellyasiya Məhkəməsi ( Şərafət Məmmədova, Pərviz Hüseynov, Cahangir Yusifov) 1-ci dərəcəli Qarabağ əlilinə vəkil ayrılmasından imtina edib ki, tərəflərin hüquq bərabərliyi prinsipini pozacaq, amma DİN-in saxta vəkili və nümayəndəsini, DSMF-in 39 saylı vəkil bürosunu hüquqverici sənəd olmadan qəbul edib.

VK-nın Hüquqi Yardım Mərkəzinə müraciət edən Qarabağ əlilinə 5 saylı vəkil bürosundan Nurəddin Kantayev pulsuz vəkil ayrılıb, amma vəkil, pulsuz olduğundan hüquqi yardımdan imtina edib. Mərkəzin direktor müavini, xanım Afət Qazıyeva MM-dən, Ali Məhkəmədən, ali dövlət hakimiyyəti orqanlarından gələn tapşırıqlara baxmayaraq, 1-ci dərəcəli Qarabağ əlilinə nə cinayət, nə inzibati, nə də mülki işlərdə vəkil ayrılmasını çözməyib. Özü də vəkillikdən imtina edib. Yəqin pulsuz olduğuna görə. Bəs nə yaxşı terrorçu Vardanyana pulsuz vəkillik edir? Yoxsa, separatçı VK rəhbərliyində təmsil olunan vəkilə xidmət haqqı ödəyir, dövlət büdcəmiz ziyana düşmür? Başqa nəsə fikirləşmək olmur, yoxsa niyə terrorçu Vardanyana göstərilən yüksək xidmət Qarabağ əlilinə aşağı səviyyədə də olsa göstərilməsin?

VK-nın sədri, Məhkəmə Hüquq Şurasının üzvü Anar Bağırovun məhkəmədə müdafiəyə ehtiyacı olan 1-ci dərəcəli Qarabağ əlilinə , dövlət büdcəsi hesabına gərək deyil, haqqı ödənilməklə vəkillik etməsi niyə mümkün olmasın? Pulla deyil? Müqavilə bağlanılsın, xidmət göstərilsin. ƏLİRZA HƏBİLOVUN QARŞISINA ANAR BAĞIROVDAN ÖZGƏ KİM ÇIXA BİLƏR? Bir bilinsin görək, VK-nın sədri Anar Bağırovdur, yoxsa ?...

**Məğrur BƏDƏLSOY**

**Məğrur Bədəlsoy**



# Qiymətlər, tariflər anında, pensiyalar "nağılla" qaldırılır

## ƏMDX "Veteranlar haqqında" qanunun icrasından imtina edir

**Artıq öyrəncəliyik, qiymətlər, kommunal ödənişlər, tariflər bir gecənin içində qaldırılır, pensiyalar, təqaüdlər, əməkhaqqılarının ilboyu artırılacağı söylənilir. Beləcə hansısa "eks, növbədənkənar" deputatın, hökumət üzvünün "artım nağılları" bir il əhalinin başını qatır, medianın manşetinə çevrilir, növbəti ilin Novruz bayramına düşən ayında "göydən 3 -5 faizlik illik artım alması" düşür". Sonra yenə də qiymətlər, tariflər sosial- iqtisadi əsaslandırılmadan birdən Tarif Şurasının qərarı ilə qaldırılır, əhaliyə isə yeni nağıllar danışılır. Köhnə nağıllarsa hələ də deputatların, məmurların dilində dolaşır. Ən böyük nağıl 80 manatlıq veteran pulları haqqındadır. Bir də verilməyən uşaq pulları ara-sıra gündəmə gəlir.**

30 sentyabrda Milli Məclisin payız sessiyasının ilk iclasının keçiriləcəyi, gündəliyin vəsiqələrin verilməsi və komitələrin formalaşması olması bildirilib. Düzü, hamı kimi, bizim də yeni tərkibli qanunverici hakimiyyətdən pozitivə doğru bir gözləntimiz yoxdur. Məclisin yeri dağ başı olsa da, özü dağın dibindən- PA-dan idarə olunur. Dılğır bir məmurun rüşvət, mənimsəmə qərarını qanundan aşağıda tutan, "biz neyləyə bilərik" ritorik sualı ilə deputatlıq edən qanunverici orqandan , tərkibi köhnə olsun, yeni olsun, nəsə gözləmək olarmı?

"Veteranlar haqqında" qanunun yalnız bir maddəsi Qarabağ veteranlarına tətbiq edilir, onu da Tarif Şurası ləğv edib. Qanunun 11-ci maddəsinə görə, müharibə veteranlarının istifadəsində olan dövlət bağları və bağçılıq sahələri ƏVƏZSİZ olaraq onların (müharibə veteranlarının) şəxsi MÜLKİYYƏTİNƏ verilir". Bu ƏVƏZSİZ MÜLKİYYƏT hüququnu QEYDİYYAT ÇIXARIŞI ("kupça") ilə gerçəkləşdirməyə borclu olan İqtisadiyyat Nazirliyi, yanındakı ƏMDX ( Əmlak Məsələləri Dövlət Xidməti) isə sözün gerçək anlamında dələduzluqla məşğuldur. Dələduzluq xidmətinə baxın, ƏMDX rəsmi məktublarla bildirir ki, əvəzsiz olaraq şəxsi mülkiyyətə verilmə hüquqların dövlət qeydiyyatına alınması demək deyildir. Tarif Şurasının 31.07.2023 tarixli qərarı ilə daşınmaz əmlakın dövlət qeydiyyatına alınmasına dövlət rüsumundan əlavə 236,96 manat xidmət haqqı müəyyən edilib və bu qərar QANUNDAN DA, KONSTİTUSİYADAN DA ÜSTÜNDÜR.(?) Bu absurdluğu bir ay DƏDKR-in rəis müavini Elvin Məmmədov, növbəti bir ay Elşad Məmmədov bildirib. Baş prokurorluqdan, DTX-dan, Korrupsiyaya qarşı mübarizə baş idarəsindən qanuna zidd olaraq rüşvətxorluğundan, korrupsiyasından şikayət edilən ƏMDX-ya göndərilən müharibə veteranlarının kollektiv şikayətini isə müavin Rüstəm Şahbazov 27.09.2024-cü il tarixli məktubla cavablandırıb. Əvvəllər də rəsmi məktublarla "JEK"-in, ƏMDK-nın hansısa məktubunun (?), şəhadətnaməsinin (?) , saxta-doğru "kupça"nın-qeydiyyat çıxarışının QANUNDAN, KONSTİTUSİYADAN, MƏHKƏMƏ QƏRARINDAN ÜSTÜNLÜYÜNÜ (?) bildirən Rüstəm Şahbazov yenə də ənənəsinə sadiq qalıb. Bu yekəlikdə xidmətin müavini yazır ki, əvəzsiz şəxsi mülkiyyətə verilmə hüquqların RÜSUMSUZ və XİDMƏT HAQQISIZ olaraq dövlət qeydiyyatına alınmasına əsas vermir. Çünki " Dövlət rüsumu haqqında" qanunda müharibə veteranlarının bağlarının dövlət qeydiyyatına alınmasının dövlət rüsumundan azad edilməsi yazılmayıb. Qanunun aliliyinə, Konstitusiyanın ən yüksək qüvvəsinə saymazlığa baxın, bəs "Dövlət rüsumu haqqında" qanunda Tarif Şurasının qərarı ilə rüsum bəlirləmə yazılıb? Özü də bağ sahələrinə aid olmayan qərarla?

İndi söz Milli Məclisdə, qanunvericidədir. Ya bu "Veteranlar haqqında" qanunun 11-ci maddəsini də ləğv etsin, ya da "Dövlət rüsumu haqqında" qanuna müharibə veteranlarının bağ sahələrinin dövlət qeydiyyatına alınmasının rüsumdan azad edilməsini əlavə etsin. Di gəl, Tarif Şurasının qərarını Konstitusiyadan, qanundan, Prezident fərmanından, NK qərarından üstün tutan xidmətin dələduzluğundan əl çəkəcəyi inandırıcı görünmür.



## Allahverdi Eminovun iki kitabı nəşr olunmuşdur

**Yazıçı - ədəbiyyatşünas və pedaqoq Allahverdi Eminovun “Qadın məlahətinin sirri” esse - romanı və “Nəsrdə obrazlılıq və təhkiyənin harmoniyası” monoqrafiyası “H.Zərdabi” nəşriyyatı tərəfindən 2024-cü ildə çapdan çıxmışdır.**

Romanda müəllif, ümumiyyətlə, bütövlükdə qadın məlahətindən irəli gələn vərdişlərinə: yataq həzinliyinə, ruhi - cismani məhəbbətinə toxunmuşdur. 236 səhifəlik əsərdə Allahverdi Eminov yazır: “Mən mövzuda konkretlik axtarmaqdan uzaq olmuşam, amma oxucularımın bədii estetik zövqünü, tələbatını nəzərə almışam... Tövsiyəm o olar qadınlar qəşəngliyini, zahiri estetikasını və daxili aləmini nəmimsəməyi bacarsınlar”.

Romanda fərdi yaradıcılıq psixologiyasından və bədii elmi üslubundan qaynaqlanan təsvirləri, ricətləri oxucuların estetik tələbatına cavab verir, onlarda həyatsevərlik hissi aşılayır.

“Nəsrdə obrazlılıq və təhkiyənin harmoniyası” (190 səhifə) A.Eminovun oxuculara təqdim etdiyi monoqrafiyada dünya ədəbiyyatşünaslığında “açıq” qalan mövzuya həsr olunmuşdur. yazıçı - müəllif nəsr yaradıcılığında mühüm amil olan obrazlılıq, müəllif təhkiyəsində harmoniyanın tənzimlənməsi məsələsi araşdırılmışdır.

# Centlmen tərbiyəsi: İlahi paydan nə üçün uzaqlaşırıq?..

**Çox gileylənirik uşaqlardan, xüsusilə, böyüyəndə - gənclik yaşına dolanda. Onların həm geyimi, həm də davranışı bizi qane eləmir: sifətinə yaraşmayan, biz-biz qıvrılan qara saqqalı, corabsız geyindiyi ayaqqabıda uzun barmaqları teleekranı “bəzəyir”, aparıcı isə sanki fəxr duyur, rejissor isə görmür. Baxıb dodaq büzən, üzünü çevirən isə tamaşaçılardır!**



Valideynlər: insanlar isə gileylənirlər ki, gənc nəsil hara gedir, yaxud gənc nəsli hara aparırıq? Cavabı sadədir: ailədən başlanan sağlam, centlmen tərbiyəsi unudulmuşdur, xüsusilə, analardan səs - səmir çıxmır, savadlısı özünü cəmiyyətdə gözə dəyməyə, seçilməyə... çalışır, bər - bəzəyin aludəçisi olur, onu övladının birbaşa tərbiyəsi maraqlandırmır, məsuliyyəti bağçanın və məktəbin üzərinə atır. Vaxt yetişir, gözündən və özündən aralı böyüyən uşağı pis yolları seçir, qumara, narkomaniyaya, dələduzluğa və s. aludəçilik edir. Ana (eləcə də ata) ayılır (bərbəzəyi sevən yaşı ötmüşdür, zinətsevərlikdən düşmüşdür), qatar artıq ötmüşdür, son vaqon da həmçinin. Gümüşü rəngli relslərin səsi eşidilmir. Valideyn xoş, humanist, canyandıran əxlaqın qaydaları və normalarının aşılanması kodeksi öz gücünü itirmişdir. Təəssüflüdür ki, özünü elitar ailə hesab edən valideynlər keçmişin əxlaq dəyərlərini xatırlamır, başa düşmək istəmirlər, burjuaziyanın, hətta rıtsarların davranışını, həyat tərzini və təfəkkürünün inkişafı missiyasını yerinə yetirmək iddiasından uzaqlaşırlar. Hətta insanın saf, təmiz doğulması və böyüməsində xeyirxahlığı əks etdirməklə, yeniyetmə və gəncin fiziki inkişafı qayğısına biganələşirlər. Centlmen tərbiyəsi mədəniyyətin təkamülünü özündə ehtiva etmək o deməkdir maddi təminatı oğurluqla, cibə girməklə, talamaqla yox, ağayana, zəhmətlə qazanmaqla əldə etsin, ona yaraşmayan kreslodan dördəlli yapışmasın, öz xoşuna kabineti tərk eləsin. Valideyn əsas məqsədindən biri kimi, həyati fəaliyyətində şərəf və ləyaqətini qorusun.

Hər bir insan - valideyn həyatda qarşısına məqsəd qoyur: peşəsinin sirlərinə vaqif olmaq, yüksək rifah halına çatmaq, yaradıcı axtarışlara qoşulmaq, ictimai nüfuz qazanmaq, şəxsi istedadının qayğısına qalmaq və sair əldə etmək. Bu məqsədlərin hər birinin arxasında əxlaqi sərvətlər durur. Sərvət meyli insanın davranışının imperativ vəhdətinə təminat verməlidir. Əxlaqi şüur üçün tipik olan ümumi sərvət istəyi insanpərvərliyə, xeyirxahlığa, Vətəni qorumağa və sairə yönəlməlidir ki, bu mənbə uşaqların davranış tərbiyəsindən qidalanmalıdır. İnsanların fərdi xüsusiyyətləri; istedadları, arzuları, ümidləri - gənc nəslin centlmen ruhunda böyüməsinə əsas verməlidir, bu üstünlüklər ən yüksək əxlaqi sərvətlərin ümumiliyi ilə birləşməlidir. Valideyn övladının gözü qabağında xalqın milli sərvətinə xəyanət edirsə, korrupsioner psixologiyasını açıq - aşkar büruzə verirsə, oxuduğu məktəbə şəxsi, yaxud idarə maşınında gedirsə, o uşağın gələcək taleyinə ümidlə baxmaq sual altındadır.

Valideyn övladının qarşısında həyat fəaliyyətini düzgün stimullaşdırmağa borcludur: uşaq yaxşı, yaxud pis hadisələri görürsə yaddaşında saxlayır, böyüyəndə çalışır şərəf və ləyaqətini qorusun, ata - anasının əməllərini xatırlayır.

Centlmenlik ruhu - vərdişi yeniyetmə və gəncdə o deməkdir tərəf - müqabilinə hörmətlə yanaşsın, öz ləyaqətini nümayiş etdirsin, əyani dəqiqlik göstərsin, yüksək savada, utilitar biliyə sahib kəsilməklə bundan istifadəyə, nəhayət klassik humanitar təhsil almalı olur. Bu komplekslər o deməkdir yeniyetmə və gəncdə - kübarlıq idealını doğrultmaq üçün əsas amal, məqsəd həyat mövqeyində özünə qarşı pozitiv momentləri aşılayır, istiqamətləndirir, bununla “centlmen” adını doğruldur.

> Centlmenlik ruhu - vərdişi yeniyetmə və gəncdə o deməkdir tərəf - müqabilinə hörmətlə yanaşsın, öz ləyaqətini nümayiş etdirsin, əyani dəqiqlik göstərsin, yüksək savada, utilitar biliyə sahib kəsilməklə bundan istifadəyə, nəhayət klassik humanitar təhsil almalı olur. Bu komplekslər o deməkdir yeniyetmə və gəncdə - kübarlıq idealını doğrultmaq üçün əsas amal, məqsəd həyat mövqeyində özünə qarşı pozitiv momentləri aşılayır, istiqamətləndirir, bununla “centlmen” adını doğruldur...

Davranış vəziyyətlərində elə hallar meydana çıxır, şəxs - fərd yaxşılığa, xeyirxahlığa nail olmaq əzmini nəzərə alır, yox əgər bu situasiyadan qaçırsa, donkixotluq deyilmi? Ədəbi obrazın arxasında o “seçmə” tipi durur - subyektin fövqündə fəzilət dayanır. Çağdaş Don Kixotun biri piçıldayır ki, mən hətta yol görməsəm də gedirəm, hara gəlib çıxacağımı bilmirəm.

Centlmen tərbiyəsində Don Kixotluğa ehtiyac qalmır, passivliyi aradan qaldırır, “hamletizm” deyilən davranışı rədd edir.

Bu gün xüsusi mülkiyyətin əmələ gətirdiyi müvafiq praktika ona gətirib çıxardığı “səbəblərə” haqq qazandırmaq mümkünsüzləşmişdir, amoralizm (əxlaqsızlıq) baş alıb gedir, xüsusilə, cavanlar küçənin bu başında evlənir, sonunda boşanırlar, “bic” doğulanlar küçəyə atılır. Sahibsiz bu uşaqların taleyini düşünəndə adamı dəhşət bürüyür, axı, bu doğulanlar da bizimdir, millətimizin balalarıdır! Mücərrəd humanizmə inanmaq olmaz, o, zəmanət vermir belə doğulanlar hansı tərbiyə metodları ilə “düzələ” bilər. Bizdən əvvəlki cəmiyyətlərdə belə xoşagəlməz hadisələr baş vermişdir və İ.Kant, A.Şveytser, Mahatma Qandi və başqaları vaxtilə səslərini qaldırmışlar. Bu simalar dönmədən insanlarda vicdanı oyatmağa çalışmışlar. Qəddarlıqdan, amoralizmdən, vəhşiləşən, mənəviyyatdan uzaqlaşmağa çalışmışlar. Sovet “gizlinlərindən” biri də bu idi ki, bu tipli “atılmışlar” İnternat (xüsusi) məktəblərində tərbiyə alıb vəzifə tuturdular, onlar tabeliyində olan insanlara vəhşicəsinə yanaşırdılar. Belə “bəxşiş” vaxtilə bizim də payımıza düşmüşdür! Sovet ideologiyası bizlər üçün hansı ikrah doğuran vasitələrə əl atmamışdır?..

Centlmen tərbiyəsi Orta əsrlərdə (XVIII-XIX əsrləri nəzərdə tuturam) burjuaziyanın özünütəsdiqi dövründə, kapitalizmin azad inkişafı zamanında Qərbi Avropada və İngiltərədə yaranmış, inkişafa qədəm qoymuşdur, XXI əsrəcən ömür sürmüşdür. Belə ki, İnsan idrakının, həyat tərzinin formalaşması missiyasına xidmət göstərmişdir. Lakin Dünyanın yenidən bölüşdürülməsi iddiası ortaya çıxdıqda mənəviyyat arxa plana keçdi, tərbiyə üsulları dəyişdi, insanlar, necə deyərlər, qəddarlaşdı, amansızlaşdı və vəhşiləşdi. Sevgi hissi azaldı, doğulan uşaqlara bu ilahi paydan heç nə düşmədi, nəticəsi isə göz qabağındadır!..

**Allahverdi Eminov**

# "Öncə sərhəddən başlamaq lazımdır..."



## Zülfiyyə Bayramova: "Vəzifəsindən, mövqeyindən asılı olmayaraq, narkoticarəti himayə edən hər bir məmur cəzalandırılmalıdır"

## "Gənclərimizi elmə, kitaba yönəltsək, onları narkomaniyadan uzaqlaşdıra bilərik"

**"Bildiyiniz kimi, dövlətimiz, Prezidentimiz tərəfindən ölkəmizdə narkomaniyaya və narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizə başlanılıb. Əslində, bu mübarizə əvvəldən də var idi, sadəcə, indi daha da sərtləşdirilib. Mən belə düşünürəm ki, bu sərtləşdirilmə gənclərimizin xeyrinədir. Amma gəncləri narkomaniyadan uzaqlaşdırmaq üçün mütləq maarifləndirmə aprılmalı, sağlam həyatın təbliğatı olmalıdır".**

Bu haqda Stopnarkotik.az-a açıqlamasında tanınmış aparıcı, hüquqşünas Zülfiyyə Bayramova bildirib. Onun fikrincə, gənclərə narkomaniyadan əziyyət çəkən, bu yolda həyatını məhv etmiş insanların taleyini göstərərək, bu sahədə mühüm nəticə əldə etmək olar: "Bununla gənclərimizin öz həyatlarını daha yaxşı, daha sağlam tərzdə keçirməsinə dəstək ola bilərik. Məsələn, onları idmana, təhsilə, kitaba və yaxud elmə, ağıllı şeylərə yönəltsək, mənə elə gəlir ki, gənclərimizi narkomaniyadan uzaqlaşdırmaq mümkün olar".

Zülfiyyə Bayramova deyir ki, narkotik alverçilərinə qarşı cəza tədbirləri də sərtləşdirilməlidir: "Məncə, cəzanı da sərt etmək lazımdır. Həm maarifləndirmə aparılmalı, həm də cəza sərtləşdirilməlidir. Bu, mənim subyektiv fikrimdir. Maarifləndirmə də güclü olmalıdır. Uşaqların, yeniyetmələrin böyük əksəriyyətinin dünyagörüşünü sağlam istiqamətə yönəltmək lazımdır. Məsələn, anormal, oğurluğu, "həbsxanaların daha yaxşı olduğunu" təbliğ edən mahnılar, şeirlər, qəzəllər yığışdırılmalıdır. Kriminal ünsürləri təbliğ edən, filankəs "lotudur" deyib onu yüksəyə qaldıran insanlardan başlamaq lazımdır. Mənlik olsa, onları cinayət məsuliyyətinə cəlb etmək lazımdır. Onlar gənclərimizi yanlış istiqamətə yönəltdiklərinə görə məsuliyyətə cəlb olunmalıdır. Yeniyetmə uşaqlar ağ vərəq kimidir, onlara nə desən beyinlərinə həkk olacaq, yaddaşlarında qalacaq. Əgər biz ona oğurluğu, həbsxananı təbliğ ediriksə, hansısa "lotunu" qaldırıb "dağın başına qoyur", onları gözlərdə ucaldırıqsa, gənclər də elə fikirləşirlər ki, yəqin həyat elə budur. Amma həyat bu deyil. Əslində, mən "lotu" deyilən şəxslərə ciddi baxmıram, onlar mənim üçün sadəcə oğrudurlar. Ona görə, bu cür təbliğat aparanların özlərini məsuliyyətə cəlb etmək lazımdır".

> Zülfiyyə Bayramova deyir ki, narkotik alverçilərinə qarşı cəza tədbirləri də sərtləşdirilməlidir: "Məncə, cəzanı da sərt etmək lazımdır. Həm maarifləndirmə aparılmalı, həm də cəza sərtləşdirilməlidir. Bu, mənim subyektiv fikrimdir. Maarifləndirmə də güclü olmalıdır. Uşaqların, yeniyetmələrin böyük əksəriyyətinin dünyagörüşünü sağlam istiqamətə yönəltmək lazımdır. Məsələn, anormal, oğurluğu, "həbsxanaların daha yaxşı olduğunu" təbliğ edən mahnılar, şeirlər, qəzəllər yığışdırılmalıdır...

Tanınmış aparıcı deyir ki, narkotik ticarətinə, narkomaniyaya qarşı mübarizə aparmaq hər bir vətəndaşın borcudur: "Ümumiyyətlə, narkotik, narkomaniya bir bəladır. Bu, birmənalıdır. Narkotikin, narkomaniyanın qarşısını almaq, ona qarşı mübarizə aparmaq bir vətəndaş kimi hamımızın borcudur. Bu, əsasən də hər bir valideynin borcudur. Nəyə görə? Heç kim sığortalanmayıb ki, bu, sabah onun balasının, övladının başına gəlməyəcək. Hətta narkotiki satanların böyük əksəriyyətinin də həyatlarının narkotikdən məhv olduğunun şahidi olmuşuq, istər xarici ölkələrdə, istərsə də Azərbaycanın daxilində. Ona görə də birmənalı olaraq hər birimiz bu "ağ və qara düşmənlə" mübarizə aparmalıyıq".

Zülfiyyə Bayramova bu fikirdədir ki, narkomaniyaya qarşı mübarizə aparmaq üçün ilk növbədə narkotacirləri zərərsizləşdirmək lazımdır: "Bunun qarşısını almaq üçün birinci narkotik satıcılarını zərərsizləşdirmək lazımdır. Təbii ki, bu, birinci növbədə sərhəddən başlayır. Narkotik ölkəmizə necə keçir, bunu müəyyən etməliyik. Bilirik ki, ölkə daxilində narkotik maddələrin istehsalı yoxdur. Onun xaricidən gəlməsinin qarşısını almaq üçün də öncə sərhəddən başlamaq lazımdır.

Mən narkotacirlərin məmurlar tərəfindən himayə olunduğunu onlara yaraşdıra bilmrəm. Yəni yaraşdıra bilmirəm ki, bu işdə məmurların əli var. Amma hər kim edirsə, bir ana kimi deyim, Allah onun bəlasını versin. Bir hüquqşünas kimi isə onu deyə bilərəm ki, kimliyindən, vəzifəsindən, mövqeyindən asılı olmayaraq, mütləq onlara qarşı böyük tədbir görülməlidir.

Lakin yenə də deyim ki, bunu sadəcə DİN-in, DSX-nın, DTX-nın, digər güc strukturlarının üzərinə də qoymaq lazım deyil. Narkotik satışına qarşı mübarizə bir ana, valideyn, oğul, qardaş, vətəndaş kimi hər birimizin borcumuzdur. Bu şeyi görmüşüksə mütləq aidiyyəti qurumlara zəng etməliyik. Onun üzərində durmalıyıq ki, bu adam həbs olunsun. Yoxsa saxlanıldı, sonra hərlənib o biri tərəfdən çıxdı, bu cür olmamalıdır. Bir vətəndaş kimi nəzarət etməliyik. "Mənim nə borcuma qalıb?" sözünü işlətməməliyik".

**Söhbətləşdi:**
**Fuad BİLƏSUVARLI**

# Roman kimi...

**44 günlük haqq savaşımızda minlərlə Vətən qeyrətli oğulların qanı bahasına qazanılan qələbə Azərbaycanın, eləcə də dünya hərb tarixinə qızıl hərflərlə həkk olundu. Bu şərəfi bizə yaşadanların sırasında şəhid mayor Kamran Fərəcov da var, hansı ki, o, son damla qanına qədər həmişə öndə gedib. Astara Pedaqoji Kollecində ona həsr olunmuş "Roman kimi" hekayəsinin təqdimatı keçirildi.**




Əvvəlcə Vətən şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla anıldı.

Dövlət Himninin sədaları altında başlanan tədbiri açan kollecin direktoru, şəhid atası Kamran Kazımov dedi: -Azadlığı, müstəqilliyi, babalardan miras qalan torpağı uğrunda oğlunu, qızını şəhid verən xalq xoşbəxt xalqdır. Bu mənada Azərbaycan xalqının qürur hissi keçirməyə, başını uca tutmağa tam mənəvi haqqı var. Milli-mənəvi birliyimiz, Vətən oğullarının doğma el-obaya sədaqəti, mərdliyi və mətinliyi 44 günlük haqq savaşımızda özünü daha bariz şəkildə göstərdi. Bu ölümsüzlüyə qovuşan qəhrəmanlar öz xalqının əsrlərin sınağından çıxmış milli xüsusiyyətlərinin mahir daşıyıcılar olmaqla, onların igidlik nümunələrində xalqın, millətin köklü duyğuları yaşayır. Milli mentalitetimiz, milli ləyaqətimiz məhz millətin qiymətli potensialı olan belə oğulların çiyinlərində yüksəlir.

Çıxışlarda şəhid mayor Kamran Fərəcovun tələbəlik yoldaşları, iş yoldaşları ehtiyatda olan polkovnik Rəşad Kazımov, polkovnik-leytenant Asif Kərimov, ehtiyatda olan zabit, mayor Cəmaləddin Məmmədov, döyüş yoldaşları Rauf Salayev , Ağasəlim Camalov şəhidlə bağlı danışdıqları xatirələr tədbir iştirakçılar tərəfindən böyük maraqla dinlənildi.

Astara Rayon İcra Hakimiyyətinin İctimai, siyasi-humanitar şöbə üzrə müavini Firəngiz Sadıxova, sinif yoldaşı Ruslan Əliyev, müəllimi Aybəniz Həsənova, Astara rayon YAP təşkilatının sədri, şəhid ailələrinin dostu Həbib Cəfərov mayor Kamran Fərəcovun Vətən müharibəsində göstərdiyi igidlik və qəhrəmanlıqdan, onun vətən sevgisindən söz açdılar.

"Roman kimi" filminin nümayişindən sonra Astara Pedaqoji Kollecin Maliyyə-informasiya şöbəsinin müdiri, şəhidin ömür-gün yoldaşı Nurанə Fərəcova çıxışında tədbirdə iştirak edən hər kəsə, şəhidin döyüş yoldaşlarına təşəkkür söylədi və nə qədər ağrılı-acılı olsa da Kamranın qürurla, iftixarla yad olunduğunu bildirdi.

Şəhid mayor Kamran Fərəcov 1978-ci ildə Astaranın Sencərədi kəndində dünyaya göz açıb. Vətən müharibəsində Cəbrayılın, Qubadlının azadlığı uğrunda döyüşlərdə qəhrəmanlıq göstərib. Oktyabrın 21-də Qubadlıda şəhadətə qovuşub, Astarada torpağa tapşırılıb. Ölümündən sonra 3-cü dərəcəli "Rəşadət" ordeninə, "Vətən uğrunda", "İgidliyə görə", Cəbrayılın, Qubadlının azadlığı uğrunda medallara layiq görülüb.

Ailəli idi, iki qızı yadigar qalıb.

**Zəfər ORUCOĞLU,**
**Azərbaycan Jurnalistlər Birliyinin üzvü**